20 iyul 2018-ci il
№27 (8793)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

**Təhsil millətin gələcəyidir!**
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## Bu sayımızda

**Təhsil naziri Balakən şəhərində vətəndaşları qəbul edib**
⇨səh.3

**Təlim nailiyyətlərinin yaxşılaşdırılmasında sinifdənxaric tədbirlərin rolu**
⇨səh.4

**Süni intellekt beyin şişini həkimlərdən daha tez diaqnozlaşdırıb**
⇨səh.5

**UFAZ-ın 40 tələbəsi Strasburq Universitetində olub**
⇨səh.7

# Azərbaycan dilinin daha geniş istifadəsi üçün

## Hazırlanacaq dərsliklər əcnəbilərdə Azərbaycan dilində ilkin bilgilər yaratmağa hədəflənib




Prezident İlham Əliyev "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncam imzalayıb. Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin, bu dillə maraqlanan şəxslər üçün əlçatanlığının təmin edilməsi və öyrənilməsinin asanlaşdırılması məqsədilə imzalanan sərəncama əsasən, müxtəlif qurumlara ayrı-ayrı tapşırıqlar verilib. Belə ki, Xarici İşlər Nazirliyi Təhsil Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Azərbaycan Respublikasında "Əcnəbilər üçün Azərbaycan dilinin elektron platforması" layihəsinin tətbiqinə, həyata keçirilməsi mexanizmlərinə və icra müddətinə dair təkliflərini iki ay müddətində hazırlayıb, Nazirlər Kabinetinə təqdim edəcək. Nazirlər Kabinetinə isə tapşırılıb ki, bu sərəncamın 1-ci hissəsinə əsasən təqdim olunacaq təklifləri beynəlxalq təcrübə, habelə Azərbaycan Respublikası qanunvericiliyinin və onun tətbiqi təcrübəsinin təhlili əsasında dəyərləndirsin. Nazirlər Kabineti "Əcnəbilər üçün Azərbaycan dilinin elektron platforması" layihəsinin tətbiqinin məqsədəuyğunluğu barədə, habelə həmin layihənin həyata keçirilməsi üçün tələb olunan maliyyə vəsaiti, maliyyələşmə mənbələri və icra mexanizmlərinə dair təkliflərini, layihənin tətbiqindən gözlənilən nəticələr barədə proqnozları 2018-ci il dekabrın 1-dən gec olmayaraq ölkə Prezidentinə təqdim etməlidir.

⇨Ardı səh.2

# Tələbat daha çox ibtidai sinif müəllimlərinədir

## İxtisaslı kadrlara ən böyük ehtiyac isə rus bölməsindədir

İyulun 16-dan müəllimlərin işə qəbulu üzrə müsabiqənin test mərhələsi keçirilir. İmtahanların budəfəki ünvanı da Azərbaycan Texniki Universitetinin İdman Kompleksidir. İmtahanlara qatılmaq üçün 50 mindən artıq şəxs müraciət edib. Onlardan 46839 namizədin ərizəsi təsdiq edilib və test imtahanlarına dəvət olunub.

Hər gün təxminən 4 min nəfərə yaxın namizəd test imtahan mərhələsində iştirak edir. Hər fənn üzrə imtahanlar müxtəlif günlərdə təşkil olunub. İmtahanlara ibtidai sinif müəllimliyinə iddialılarla start verilib. İyulun 19-dan ingilis dili müəllimi olmaq istəyənlər öz bilik və bacarıqlarını nümayiş etdirirlər. Riyaziyyat üzrə 23-24 iyul, informatika və təsviri incəsənət üzrə 24 iyul, Azərbaycan dili və ədəbiyyat üzrə 25-26 iyul, rus dili, rus dili və ədəbiyyatı, Azərbaycan dili, fransız dili və musiqi üzrə 26 iyul, tarix və kimya üzrə 27 iyul, fizika və texnologiya üzrə 28 iyul, biologiya üzrə 30 iyul, fiziki tərbiyə üzrə 30-31 iyul, coğrafiya üzrə 31 iyul tarixlərində test imtahanları keçiriləcək.

### Müəllimliyə iddialı qadınlar daha çoxdur

Hər gün 4 seans təşkil edilir. Hər seansda namizədlər ixtisaslarına uyğun olaraq ümumtəhsil məktəblərinin fənn proqramının məzmunu üzrə 40, metodika, təlim strategiyaları üzrə 10 və məntiq üzrə 10 sual olmaqla ümumilikdə 60 suala 90 dəqiqə ərzində cavab verirlər.

Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdir müavini Eşqi Bağırov məlumat verib ki, imtahanlarda iştirak edənlər əsasən son illərin məzunlarıdır. İbtidai sinif müəllimliyi üzrə imtahanlara qatılanlar arasında qadınların sayı kişilərdən xüsusilə çoxdur. Onun sözlərinə görə, digər fənlərdə bu fərq azalır.

İbtidai sinif müəllimlərinin imtahanı 4 gün davam edib və iyulun 19-da yekunlaşıb. Ən yüksək nəticə 59 bal olaraq qeydə alınıb.

### "Bir işi həvəslə gördünsə, orada uğursuzluq mümkün deyil"

Ayşən Əhmədova da 59 bal toplayan bir neçə namizəddən biridir. Bu ilin məzunudur. Bakı Slavyan Universitetində "İbtidai sinif müəllimliyi" ixtisası üzrə təhsil alıb: "Çox həyəcanlıydım. Hamı imtahanların çətinliyindən danışırdı. Ancaq mənə o qədər də çətin olmadı. Ən qorxduğum metodika idi, onu belə uğurla cavablandırdım".

⇨Ardı səh.2

# "Akademik yazı bacarığı ali məktəblərdə öyrədilməlidir"

**(Əvvəli ötən sayımızda)**

Müasir dövrün reallıqları ölkənin elmi potensialını öz çiyinlərində daşıyan alimlərin, tədqiqatçıların mühüm rolunu əvvəlkindən daha çox qabardır. Məhz intellektual potensialın daşıyıcıları olan alimlər bilik iqtisadiyyatının formalaşması, ölkənin rəqabət qabiliyyətinin gücləndirilməsində xüsusi çəkiyə malikdir. Bu mənada ölkəmizin ali təhsil müəssisələrində çalışan alim-tədqiqatçıların da üzərinə məsuliyyət düşür.

Ötən tədris ili alimlərimizin fəaliyyəti baxımından nə ilə yadda qalıb? Alimlərimizin dünya elm aləmində yüksək səviyyəli məqalələrlə çıxış etməsi üçün hansı işlər görülür? "Clarivate Analytics" şirkətinin Azərbaycan üzrə rəsmi nümayəndəsi Aygün Babazadə ilə söhbətimizin ikinci hissəsini təqdim edirik.

*- Alimlərimizin beynəlxalq jurnallarda publikasiya aktivliyini artırmaq və mümkün baryerləri aşmaq üçün biz hansı işləri görməliyik?*

- Məlumdur ki, indiki dövrdə digər sahələrdə olduğu kimi, elmin dili də ingilis dilidir. De-fakto biz "Web of Science" və digər bu kimi elmi bazalarda indekslənən jurnallarda dərc olunmaq istəyiriksə, alimlərimiz ingilis dilində yazmalıdırlar. Düzdür, bu, hüquqi şərt deyil, ancaq fakt bundan ibarətdir ki, hazırda elmin dili ingilis dilidir. Biz elmi tədqiqat işlərimizin qlobal miqyasda tanınmasını və akademik ictimaiyyət tərəfindən qəbul olunmasını istəyiriksə, ingilis dilində yazmalıyıq. Bu baxımdan, mən universitetlərdə olduqca alimlərimizin problemlərinin olduğunu görürəm. Fundamental və dəqiq elmlər sahəsində yazanlar öz məqalələrinin məzmununu qrafiklər və ya formullar vasitəsilə üzə çıxara bilirlər, ancaq humanitar elmlərdə əsas kommunikasiya vasitəsi canlı dil olduğu üçün onlara bazaya düşmək çətindir. Yəni, dil məsələsi vacibdir. Məsələn, Rusiyada bu problemin həlli üçün universitetlərin nəzdində xüsusi akademik yazı mərkəzləri yaradılır. Alimlər öz işlərini bu mərkəzə təqdim edirlər, onlara tərcümə xidmətləri göstərilir, elmi iş ilkin mərhələdə gözdən keçirilir və daha sonra ayrı-ayrı jurnallarla kommunikasiya qurulur. Bundan başqa, problemin həlli yolu kimi türkdilli xalqların regional indeksinin yaradılmasını təklif etmək olar. Bu o deməkdir ki, alimlərimiz Azərbaycan dilində yazmağı davam etdirirlər, ancaq daha böyük bir coğrafiyaya çıxırlar. Yəqin ki, bütün türkdilli xalqlar bu regional indeksə daxil olmaq istəyərlər. Bu regional indeks daha çox humanitar və sosial elmlərə fokuslanmalı, sözügedən istiqamətdə yüksək keyfiyyətli türkdilli jurnalları əhatə etməlidir. Nəzərə alsaq ki, ingilis dili baryerinə görə mədəniyyət-incəsənət və sosial elmlər sahəsində yazan alimlərimizə bu bazalara düşmək kifayət qədər çətindir, o zaman bu, uğurlu bir həll ola bilər. Təbii ki, biz Azərbaycan hökuməti və akademik ictimaiyyəti ilə bu məsələ ilə bağlı mövcud ekspertizamızı, təcrübəmizi böyük məmnuniyyətlə paylaşmağa və onlara hər cür dəstək göstərməyə hazırıq.

⇨Ardı səh.5



# Əfsanəyə dönmüş məhəbbət musiqi dilində

*Ayla Kəlbiyeva:* "Məhəbbət əfsanəsi" adlı solo konsertimdə çox həyəcanlı idim"

Səh.7

# Azərbaycan üçün öyrədənlər və öyrənənlər

Artıq tədris ili başa çatıb. Şagirdlər yay tətilinə buraxılıblar. Kimisi valideynləri ilə bölgələrə gedir, kimisi xarici ölkələrə istirahətə yollanır, bəziləri isə heç hara getməyərək, tətilini elə öz yaşadığı yerdə keçirir. "Azərbaycan üçün öyrət" təhsil proqramı çərçivəsində start verilən "Təhsil avtobusu" yay məktəbi ənənəsinə sadiq qalaraq məhz sonuncu qeyd etdiyimiz məktəblilərin qonağı olmaq üçün regionlara üz tutub. Özü də budəfəki missiyası ümumi təhsil müəssisələrinin göstəriciləri zəif və orta olan 7-8-9-cu sinif şagirdləri ilə təlim keçmək, bir gün olsa belə, onların istirahətinin şən və mənalı təşkilini təmin etməkdir.

"Layihənin budəfəki özəlliklərindən biri "Təhsil avtobusu-2018"-in bölgələrdə ən ucqar kəndlərdə fəaliyyət göstərən modul tipli məktəblərin şagirdlərinin də qonağı olmasıdır". Bu sözləri təhsil nazirinin müavini Firudin Qurbanov "Azərbaycan üçün öyrət" təhsil proqramı çərçivəsində start verilən yay məktəbi ilə bağlı keçirilən tədbirdə deyib. İnsan kapitalının formalaşmasında təhsilin xüsusi rolundan danışan nazir müavini "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın ölkəmizdə uğurla icra olunduğunu qeyd edib.

⇨Ardı səh.8

# UNEC-in Zaqatala filialında yeniliklər

UNEC-in Zaqatala filialı 2018-2019-cu tədris ilinə yeniliklərlə start verəcək.

Filiala yeni tədris ilindən I və II ixtisas qrupu üzrə tələbə qəbulu həyata keçiriləcək. I ixtisas qrupunu seçən abituriyentlər "İnformasiya texnologiyaları" ixtisası üzrə əyani təhsil ala biləcəklər. II qrupda isə ixtisasların sayı artırılıb. II ixtisas qrupu üzrə "İqtisadiyyat", "Maliyyə", "Mühasibat uçotu və audit", "Biznesin idarə edilməsi", "Turizm və otelçilik"lə yanaşı, "Menecment", "Marketinq" ixtisasları da tədris olunacaq.

Tələbə və valideynləri sevindirəcək daha bir yenilik isə Zaqatala filialında təhsil haqları ilə bağlıdır. Belə ki, filialda ixtisaslar üzrə təhsil haqları qiyabi və əyani təhsildə əhəmiyyətli dərəcədə azaldılıb. Filiala qiyabi qəbul planında və keçid ballarında da dəyişikliklər olunub, keçid balları azaldılıb.

Yeni dərs ilindən Zaqatala filialında tədrisin keyfiyyətinin artırılması məqsədilə "Elektron universitet" modeli tətbiq olunacaq. Biliyin qiymətləndirilməsində şəffaflıq və operativliyin təmin olunması üçün isə imtahanlar elektron qaydada mərkəzləşdirilmiş test üsulu ilə aparılacaq. Filialda tələbələrin stimullaşdırılması, sağlam rəqabət mühitinin yaradılması məqsədilə, ötən tədris ilində olduğu kimi, bu il də imtahanlarda ən yüksək nəticə göstərən tələbə təhsilini bir semestrlik Bakıda davam etdirə biləcək. Eyni zamanda imtahanlarda ən yüksək nəticə göstərən 3 tələbəyə 100 AZN məbləğində xüsusi təqaüd veriləcək.

## RƏSMİ XRONİKA



- Prezident İlham Əliyev iyulun 19-da Azərbaycanda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.
- İyulun 19-da Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan-İtaliya biznes forumu keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İtaliya Respublikasının Prezidenti Sercio Mattarella biznes forumda iştirak və çıxış ediblər. Sonra dövlət başçıları Mərkəzdə açılan Azərbaycan xalqının böyük oğlu, sərkərdəsi və şairi Şah İsmayıl Xətaiyə həsr edilmiş "Ədəbiyyat xəzinəsi" adlı sərgi ilə tanış olublar.
- İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə rəsmi səfərdə olan İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə təkbətək və geniş tərkibdə görüşləri keçirilib. Sonra Azərbaycan-İtaliya sənədləri imzalanıb, daha sonra hər iki ölkənin Prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər. Həmin gün Prezident İlham Əliyev və İtaliya Prezidenti Sercio Mattarella Sumqayıt Kimya Sənaye Parkının ərazisində "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılış mərasimində iştirak və çıxış ediblər. Səfər çərçivəsində habelə qarşılıqlı təltifetmə mərasimi olub.
- Ölkə başçısı İlham Əliyev iyulun 17-də "Yanar dağ" dövlət tarix-mədəniyyət və təbiət qoruğunun yenidən qurulması ilə bağlı tədbirlər, Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında sərəncamlar imzalayıb.
- Prezident İlham Əliyev iyulun 16-da Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə maliyyə yardımının ayrılması, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Himayəçilik Şurası üzvlərinin təyin edilməsi, Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin işçilərinin orden və medallarla təltif edilməsi haqqında sərəncamlar imzalayıb.
- İyulun 16-da Azərbaycan Prezidenti İlham Əliyev Fransa Respublikasının Prezidenti Emmanuel Makrona XXI dünya çempionatında Fransa futbolçularının möhtəşəm qələbəsi və dünya çempionu adını qazanması, Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçə çempionatda Xorvatiya yığma komandasının uğurlu çıxış edərək bu mötəbər turnirin gümüş medalını qazanması, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə isə futbol üzrə XXI Dünya Çempionatının uğurla keçirilməsi münasibətilə təbrik məktubları göndərib.
- Dövlət başçısı İlham Əliyev iyulun 13-də İran İslam Respublikasının səhiyyə, müalicə və tibbi təhsil naziri Həsən Qazizadə Haşiminin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
- İyulun 14-də ölkə başçısı İlham Əliyev Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynə Mastunq şəhərində törədilmiş partlayış nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı verib.
- İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında respublikanın hüquq-mühafizə orqanları rəhbərlərinin iştirakı ilə iclas keçirilib. Ölkə başçısı iclasda çıxış edib.
- Prezident İlham Əliyev iyulun 13-də Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşlarının "Azərbaycan Bayrağı", Sudeif Başir oğlu İmamverdiyevin "Şərəf" ordenləri ilə təltif edilmələri haqqında sərəncamlar imzalayıb.

# Azərbaycan dilinin daha geniş istifadəsi üçün

## Hazırlanacaq dərsliklər əcnəbilərdə Azərbaycan dilində ilkin bilgilər yaratmağa hədəflənib

⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

Zərurət yarandığı təqdirdə, Xarici İşlər Nazirliyinin müraciətinə əsasən, digər dövlət orqanlarının da bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş təkliflərin hazırlanması prosesinə cəlb olunmasını təmin etmək Nazirlər Kabinetinə həvalə edilib.

### Müstəqilliyin ilk illərindən formalaşan hüquqi zəmin

Avqustun 1-dən qüvvəyə minəcək bu sərəncam Azərbaycan dilinin təbliği istiqamətində həyata keçirilən siyasətin davamıdır. Ümumiyyətlə, heç kəsə sirr deyil ki, ölkədə dil siyasətinin formalaşdırılması, ana dilinin dövlət dili olaraq tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilməklə, həmrəyliyin göstəricisi kimi beynəlxalq aləmdə rolunun və nüfuzunun yüksəlməsi Azərbaycan dövlətinin prioritetlərindəndir. Hələ 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Azərbaycan Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit olunub. O gündən etibarən həyata keçirilən məqsədyönlü siyasət ölkədə Azərbaycan dilinin möhkəmlənməsinə xidmət edib. Azərbaycan Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərmanları ilə dilimizin təbliğinin əsası qoyulub. "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı", eləcə də "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunu və dil siyasəti sahəsində digər normativ hüquqi aktlar, həmçinin tədbirlər nəinki Azərbaycanda dilçilik sahəsinin hüquqi əsaslarını və icra mexanizmini düzgün müəyyən edib, həm də dilimizin təbliğinin zəruriliyini ortaya qoyub.

### Azərbaycan dilinin təbliği zərurətə çevrilir

Bunun nəticəsidir ki, Azərbaycan dilinin istifadəsi və əsaslı tədqiqi, ölkədə dilçilik elmi sahəsində vəziyyətin yaxşılaşdırılması üçün əlverişli zəmin yaradılıb. Eyni zamanda, elm və texnikanın sürətlə inkişaf etdiyi hazırkı qloballaşma dövrü Azərbaycan dilinin zənginləşməsi və tətbiqi imkanlarının genişləndirilməsi istiqamətində aparılan işlərin yeni səviyyəyə yüksəldilməsini tələb edir.

Azərbaycanda hər il yüzlərlə əcnəbi təhsil alır. Ölkəmizi əcnəbi tələbələrə daha yaxından tanıtmaq, onların Azərbaycan cəmiyyətinə inteqrasiyasını asanlaşdırmaq və ölkəmizlə mənəvi bağlarını daha da möhkəmlətmək üçün əcnəbilərin, o cümlədən ölkəmizdə təhsil alan xarici ölkə vətəndaşlarının Azərbaycan dilini öyrənməsinə imkan yaradılması əhəmiyyətli məsələlərdən biridir.



Odur ki, ölkə Prezidenti müstəqil dövlətçiliyimizin əsas atributlarından biri olan Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin, bu dillə maraqlanan şəxslər üçün əlçatanlığının təmin edilməsi və öyrənilməsinin asanlaşdırılması məqsədilə belə bir qərara imza atıb.

### Dilçilər işə başlayıb

Məlumdur ki, bu qərarın yerinə yetirilməsində əsas ağırlıq dilçilərin üzərinə düşəcək. Nəsimi adına Dilçilik İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya üzrə fəlsəfə doktoru Baba Məhərrəmli "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" ölkə Prezidentinin sərəncamını zamanın tələbindən irəli gələn qərar hesab edir. Onun sözlərinə görə, elektron məkanın əhatə dairəsi daha geniş olduğundan Azərbaycan dilinin öyrənilməsi daha kütləvi olacaq: "Azərbaycan dili müstəqil dildir. Onun təbliği çox önəmlidir. Xüsusən, əcnəbilər arasında dilin təbliğinin təşkili çox əhəmiyyətlidir. Müşahidələr göstərir ki, ölkəmizdə yaşayan, təhsil alan və işləyən əcnəbilər üçün dilimizi öyrənmək zərurəti yaranmır. Şəhərdə hara baxsanız - reklamlar, afişalar, menyular əcnəbi dillərdədir. Bu da ölkədə dövlət dilinə münasibəti dəyişir. Odur ki, ölkə Prezidenti İlham Əliyevin "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamı yerinə düşür. Təbii ki, biz də Dilçilik İnstitutu olaraq sərəncamdan irəli gələn məsələləri yerinə yetirəcəyik".

Bəs, sərəncamdan irəli gələn məsələlər nədən ibarət olacaq? B.Məhərrəmlinin sözlərinə görə, əcnəbilər üçün Azərbaycan dili ilə bağlı elektron dərsliklərin hazırlanması nəzərdə tutulur: "Həmin dərsliklər yüksək səviyyədə hazırlanmalıdır. Virtual dərslik olmalıdır ki, Azərbaycan dilini rahat öyrənə bilsinlər. Yəni, ibtidai də olsa, hazırlanacaq bu dərsliklər sayəsində əcnəbilərdə Azərbaycan dilində ilkin bilgilər yaratmaq hədəflənib".

Hədəfə daha tez nail olmaq üçün isə dilçilər Mail Əsgərovun rəhbərliyi altında işə başlayıblar: "Dilçilik İnstitutunun Sosiolinqvistika və dil siyasəti şöbəsində əcnəbilər üçün Azərbaycan dili dərsliklərinin yaradılmasına artıq başlanılıb. Sərəncam bu prosesi daha da stimullaşdıracaq. Xüsusən, Xarici İşlər və Təhsil nazirlikləri də bu işlərin həyata keçirilməsində bizə dəstək verəcək. Nəticədə işimizin effektivliyi artacaq və nəticələri tezliklə görünəcək".

B.Məhərrəmlinin sözlərinə görə, indiyədək məhdud səviyyədə də olsa, əcnəbilər üçün Azərbaycan dilini öyrənməyi asanlaşdıran kitablar olub: "Məsələn, akademik Kamal Abdullanın "Azərbaycan dili" dərsliyi var. Bir sıra dillərə də tərcümə olunub. Amma bundan sonra belə nümunələrin sayı artacaq. Üstəlik, həmin nümunələrin elektron variantda hazırlanması daha çox insanın ondan istifadəsinə imkan yaradacaq".

Dilimizin təbliği baxımından Prezidentin sərəncamını önəmli sayan dilçi alimin fikrincə, qərar Azərbaycan dilinin tətbiqinin genişlənməsinə xidmət edəcək: "Nəinki Azərbaycan dili, dilimizi öyrənmək istəyən əcnəbilər üçün də çox böyük əhəmiyyəti olacaq. Onlar Azərbaycan dilini istənilən yerdən öyrənə biləcəklər. Bu işdə xaricdəki səfirliklərimizin, diplomatik nümayəndəliklərin üzərinə də böyük vəzifə düşür. Ümid edirəm ki, onlar Azərbaycan dilinin təbliğatını düzgün qura biləcəklər".

# Tələbat daha çox ibtidai sinif müəllimlərinədir

## İxtisaslı kadrlara ən böyük ehtiyac isə rus bölməsindədir

⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI



"Müəllimlik uşaqlıq arzumdur", - deyən Ayşən ailəsində ilk müəllim olacaq. Anası çox yorulduğu, atası isə həkim olmasını arzuladığı üçün onun müəllim olmasına elə böyük həvəs göstərməsələr də, Ayşən ürəyində uşaqlıqdan bəsləyərək böyütdüyü müəllimlik sevdasının bu peşədə uğur qazanması üçün kifayət olduğunu iddia edir: "Müəllim olmaq ən böyük arzumdur. Harada olmağından asılı olmayaraq, bu işi görməyə hazıram. Məncə, imtahanda uğur qazandığım kimi, müəllimliyi də bacaracağam. İnsan istədikdən sonra hər işin öhdəsindən gələr. Bir işi həvəslə gördünsə, orada uğursuzluq mümkün deyil".

### İmtahanlar yüksək səviyyədə təşkil olunub

İmtahanların qüsursuz keçirilməsi üçün hər cür texniki imkan yaradılıb, prosesə kifayət qədər insan resursu cəlb edilib. Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun müdir müavini Fəxri Qurbanovun verdiyi məlumata görə, imtahanların təşkilində 200 nəfərə yaxın heyət iştirak edir. Bütün imtahanlarda olduğu kimi, bu dəfə də təcili tibbi yardım briqadaları və mühafizə xidməti də yüksək səviyyədə təşkil olunub.

### Mühafizə niyə gücləndirilib?

Builki imtahanlarda mühafizənin gücləndirildiyi müşahidə edilir. F.Qurbanovun sözlərinə görə, imtahan prosesinə mühafizə xidmətinin 20 əməkdaşı cəlb edilib. Daxili İşlər Nazirliyinin əməkdaşları, Çevik Polis Alayının nümayəndələri də prosesdə yaxından iştirak edir. O, mühafizənin gücləndirilməsinin səbəbini belə açıqlayıb: "Bu, ilk növbədə, müəllimlərin işə qəbulu imtahanlarında iştirakçıların sayının çoxalmasıyla əlaqədardır. İkinci bir tərəfdən, müəllimlərin diaqnostik qiymətləndirilməsi imtahanlarından fərqli olaraq, iştirakçılar müəllimlər deyil, müəllim olmaq istəyənlərdir. Onların çoxu ilk dəfə bu imtahanlarda iştirak edir və prosesdən tamamilə məlumatsızdır. Düzdür, iştirakçılara proses barədə təlimatlar göndərmişik. Buna baxmayaraq, onları düzgün tənzimləyə bilmək, ajiotaj yaranmasının qarşısını almaq, sıxlıq və gərginliyə imkan verməmək və namizədlərin imtahanların keçirildiyi zallara düzgün şəkildə yönləndirilməsi məqsədi ilə mühafizənin gücləndirilməsi məqsədəuyğun hesab edilib. Xüsusilə, prosesə bu sahədə təcrübəsi olan mühafizə xidməti əməkdaşları cəlb edilib".

### İmtahan başa çatır

Fənnindən asılı olmayaraq, hər imtahan eyni cür bitir. Fərq, sadəcə, imtahan verən şəxsin işini nə vaxt tamamlamasından asılı olaraq yaranır. Belə ki, namizəd imtahanı vaxtından əvvəl bitirirsə,"Seansı bitir" düyməsini basır. Namizədlər işini vaxtından əvvəl və ya vaxtında tamamlaya bilməsə, bu funksiyanı sistem özü həyata keçirir. 90 dəqiqənin tamamında sistem bağlanır və namizədin həmin vaxta qədər qeyd etdiyi cavabların əsasında formalaşan balı ekranda görünür.



### Vakansiya

Müəllimlərin işə qəbul imtahanlarının test mərhələsi hələ gələn həftə də davam edəcək. Bundan sonra isə vakansiya mərhələsi olacaq. Həmin mərhələdə keçid balını toplamış namizədlər 8 vakant yer seçəcəklər. Namizədlərin vakant yerlərə yerləşdirilməsi elektron ərizələrində qeyd etdikləri seçim ardıcıllığı gözlənilməklə aparılacaq.

Təhsil nazirinin müavini Məhəbbət Vəliyevanın sözlərinə görə, builki müsabiqədə elə bir fənn yoxdur ki, həmin fənn üzrə vakansiya olmasın: "Builki müsabiqəyə 7000-dən artıq vakant yer çıxarılıb. Bütün fənlər üzrə vakansiya var. İxtisaslı kadrlara ən böyük ehtiyac isə rus bölməsindədir".

Lakin bəzi fənlər üzrə vakansiya və iştirakçı sayı fərqlənir. İbtidai sinif müəllimliyi də tələbat çox olan ixtisaslardandır.

### Müsahibə

Test imtahan mərhələsindən uğurla keçən namizədlər müsahibə mərhələsinə dəvət olunacaqlar. Müsahibə mərhələsində test imtahanlarının nəticələrinə əsasən vakant yer tutmaq hüququ qazanmış namizədlərin bilik və bacarıqları, psixoloji hazırlığı və ümumi dünyagörüşü yoxlanılacaq.

# Respublika pedaqoji mühazirələrinin yekunları barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

2017-2018-ci dərs ilinin "Ümumi təhsildə keyfiyyət ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Təhsil Nazirliyinin 28.08.2017-ci il tarixli, 261 nömrəli əmrinin tələblərinə uyğun olaraq, 2 mərhələdə-rayon (şəhər) və ölkə mərhələləri üzrə pedaqoji mühazirələr təşkil olunmuşdur.

Pedaqoji mühazirələr ümumi təhsillə bağlı aktual məsələlərə diqqəti artırmaq, təhsil işçilərinin bu barədə rəy və mülahizələrini öyrənmək, qabaqcıl müəllim və məktəb rəhbərlərinin təcrübələrini təbliğ etmək və onlar arasında pedaqoji əməkdaşlıq yaratmaq, həmçinin perspektiv üçün inkişafyönlü təkliflər hazırlamaq məqsədilə keçirilmişdir.

Pedaqoji mühazirələrin səmərəli təşkili üçün Nazirlik, Təhsil İnstitutu, rayon (şəhər) təhsil şöbələri (idarələri) lazımi tədbirlər həyata keçirmiş, hər bir rayon və şəhərdə müvafiq işçi qrupları yaradılmışdır.

Pedaqoji mühazirələrin rayon (şəhər) mərhələsində 1640 məruzə dinlənilmiş, onlardan 174-ü respublika turuna təqdim olunmuşdur. Həmin məruzələr mütəxəssis ekspertizasından keçirilmiş, 116 mühazirə yekun mərhələyə təqdim edilmişdir. Ümumilikdə ölkə mərhələsi üzrə 14 bölmədə 113 mühazirə dinlənilmişdir. Proqrama "Ümumtəhsil məktəbinin idarəolunmasının təkmilləşdirilməsi", "İbtidai təhsilin keyfiyyətinin yüksəldilməsi", "Ümumtəhsil məktəblərində psixoloji-pedaqoji xidmətin təşkili", "Tədris prosesində müasir təlim texnologiyalarının tətbiqi", "İstedadlı şagirdlərlə işin təşkili", "Pedaqoji əməkdaşlıq müəllim-şagird münasibətlərinin əsasıdır", "Sinifdənxaric və məktəbdənkənar tədbirlərin təşkili" bölmələri daxil edilmişdir.

Pedaqoji mühazirə iştirakçılarından 25-i Azərbaycan dili və ədəbiyyat, 16-sı tarix, 14-ü ibtidai sinif, 10-u riyaziyyat, 7-si biologiya, 6-sı xarici dil, 5-i fizika, 3-ü kimya, hər birindən 2 nəfər olmaqla coğrafiya, informatika, hər birindən 1 nəfər olmaqla musiqi və fiziki tərbiyə müəllimi, 13-ü məktəb direktoru, 4-ü psixoloq, 3-ü təlim-tərbiyə işləri üzrə direktor müavini, 1-i isə aparıcı məsləhətçi olmuşdur.

Yekun mərhələdə Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyalar 17, Bakı şəhəri 10, Gəncə, Sumqayıt və Şirvan şəhərlərinin hər biri 3, respublikanın digər şəhər və rayonları 74 məruzəçi ilə təmsil edilmişdir.

Bölmələr üzrə işin nəticələrinə dair protokol sənədlərinə əsasən, "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Aşağıda adları göstərilən təhsil işçiləri I, II, III dərəcəli diplomlar və tərifnamə ilə təltif edilsinlər:

**I dərəcəli diploma**

1. Gülşən Sultanova — Təhsil Nazirliyinin birbaşa tabeliyindəki T.İsmayılov adına 6 nömrəli məktəb-liseyin ibtidai sinif müəllimi
2. İlqar Məmmədov — Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Humanitar fənlər təmayüllü məktəb-liseyin psixoloqu
3. Təranə İsmayılova — Abşeron rayonu Saray qəsəbə 3 nömrəli tam orta məktəbin informatika müəllimi
4. Şəhanə Bədəlova — Ağcabədi rayonu Salmanbəyli kənd tam orta məktəbinin riyaziyyat müəllimi
5. Mətanət Kərimova — Oğuz şəhəri 3 nömrəli məktəb-liseyin tarix müəllimi
6. Zöhrə Mirzəyeva — Qəbələ rayonu Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin riyaziyyat müəllimi
7. Aytac Abbasova — Laçın rayonu Qozlu kənd tam orta məktəbinin direktoru

**II dərəcəli diploma**

1. Nigar Axundova — Təhsil Nazirliyinin birbaşa tabeliyindəki akademik Zərifə Əliyeva adına liseyin Azərbaycan dili və ədəbiyyat müəllimi
2. Zemfira Məhəmmədova — Təhsil Nazirliyinin birbaşa tabeliyindəki akademik Zərifə Əliyeva adına liseyin tarix müəllimi
3. Sevda Babayeva — Təhsil Nazirliyinin birbaşa tabeliyindəki "Ankara məktəbi" məktəb-liseyinin ibtidai sinif müəllimi
4. Lalə Abbasova — Təhsil Nazirliyinin birbaşa tabeliyindəki A.S.Makarenko adına Humanitar fənlər təmayüllü gimnaziyanın tarix müəllimi
5. Gülnar Hüseynova — Gəncə şəhəri 21 nömrəli tam orta məktəbin riyaziyyat müəllimi
6. Aliyə Əhmədova — Sumqayıt şəhəri 1 nömrəli tam orta məktəbin fizika müəllimi
7. Sevinc Məmmədova — Bərdə şəhəri 8 nömrəli tam orta məktəbin coğrafiya müəllimi
8. Səidə Quliyeva — Cəbrayıl rayonu Cocuq Mərcanlı kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi
9. Elnur Hacıyev — Göygöl şəhəri 1 nömrəli tam orta məktəbin tarix müəllimi
10. Akif Xalıqov — Lənkəran şəhəri 6 nömrəli tam orta məktəbin direktoru
11. Fərqanə Ağayeva — Qəbələ rayonu Zalam kənd tam orta məktəbinin tarix müəllimi

**III dərəcəli diploma**

1. Səadət Cahandarova — Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Bakı Avropa Liseyinin təlim-tərbiyə işləri üzrə direktor müavini
2. Sevda Əlizadə — Təhsil Nazirliyinin birbaşa tabeliyindəki "Ankara məktəbi" məktəb-liseyinin kimya müəllimi
3. Reyhan Yaqubova — Təhsil Nazirliyinin birbaşa tabeliyindəki T.İsmayılov adına 6 nömrəli məktəb-liseyin musiqi müəllimi
4. Xatirə Quliyeva — Bakı şəhəri 1 nömrəli tam orta məktəbin rus dili müəllimi
5. Könül Həsənova — Bakı şəhəri 7 nömrəli tam orta məktəbin direktoru
6. Nazimə Zeynalova — Bakı şəhəri 164 nömrəli tam orta məktəbin direktor müavini
7. Ülviyyə Şahbazova — Bakı şəhəri 270 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi
8. Elçin Atakişiyev — Astara rayonu Lovayın kənd tam orta məktəbinin tarix müəllimi
9. Mais Quliyev — Lənkəran ŞTŞ-nin aparıcı məsləhətçisi
10. Seyran Səfərov — Neftçala rayonu Xıllı qəsəbə 1 nömrəli tam orta məktəbin fizika müəllimi
11. Nurlana Cavadova — Oğuz şəhəri 1 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi
12. Nazlı İsmayılova — Qax şəhəri 2 nömrəli məktəb-liseyin Azərbaycan dili və ədəbiyyat müəllimi
13. Aybəniz Məmmədova — Qax rayonu İlisu kənd tam orta məktəbinin direktoru
14. Bikə Allahverdiyeva — Saatlı rayonu Varxankənd kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi
15. Vasif Şıxıyev — Şamaxı şəhəri 10 nömrəli tam orta məktəbin tarix müəllimi
16. Şəfəq Alıyeva — Samux rayonu Ziyadlı kənd tam orta məktəbinin direktoru
17. Könül Hüseynova — Yevlax şəhəri 3 nömrəli tam orta məktəbin biologiya müəllimi
18. Elnarə Əhmədova — Şəki rayonu Orta Zəyzid kənd 2 nömrəli tam orta məktəbin fizika müəllimi

**Tərifnamə ilə**

1. Lalə Əliyeva — Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Heydər Əliyev adına liseyin tarix müəllimi
2. Təranə Məmmədova — Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Heydər Əliyev adına liseyin riyaziyyat müəllimi
3. Zenfira Əbdürəhmanova — Təhsil Nazirliyinin birbaşa tabeliyindəki S.Rüstəm adına xarici dillər təmayüllü gimnaziyanın Azərbaycan dili və ədəbiyyat müəllimi
4. Günel Məhərrəmova — Təhsil Nazirliyinin birbaşa tabeliyindəki 132-134 nömrəli Təhsil Kompleksinin psixoloqu
5. Nuridə Qarayeva — Bakı şəhəri 13 nömrəli tam orta məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini
6. Fayaz Hüseynov — Bakı şəhəri 60 nömrəli tam orta məktəbin direktoru
7. Nübar Qayıblı — Bakı şəhəri 239 nömrəli tam orta məktəbin biologiya müəllimi
8. Vüsalə Səfərova — Gəncə şəhəri 3 nömrəli tam orta məktəbin direktoru
9. Aygün Səmədova — Şirvan şəhəri 16 nömrəli tam orta məktəbin riyaziyyat müəllimi
10. Məhəmməd Rəhimov — Ağdaş şəhəri M.Şeyxzadə adına texniki, humanitar və təbiət fənləri təmayüllü gimnaziyanın riyaziyyat müəllimi
11. Könül Nəsirova — Ağstafa şəhəri texniki-humanitar təmayüllü liseyin biologiya müəllimi
12. Rza Rzayev — Cəlilabad rayonu Pərdi kənd ümumi orta məktəbinin tarix müəllimi
13. Rəna Aslanova — Daşkəsən şəhəri 1 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi
14. Sahib Süleymanov — Goranboy rayonu Meşədiqaralar kənd tam orta məktəbinin riyaziyyat müəllimi
15. Səbinə Rəsulova — Hacıqabul şəhəri 1 nömrəli tam orta məktəbin biologiya müəllimi
16. Failə Əliyeva — Hacıqabul rayonu Talış kənd tam orta məktəbinin ibtidai sinif müəllimi
17. Jalə Alızadə — İsmayıllı şəhəri 6 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi
18. Vilayət Rüstəmov — Qazax rayonu Cəfərli kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi
19. Lətifə Zəkiyeva — Qusar şəhəri 1 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi
20. İlhamə Sultanova — Siyəzən şəhəri 3 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi
21. Nəsibə Bağırova — Sabirabad rayonu Əhmədabad kənd ümumi orta məktəbinin direktoru
22. Gülnar Mirzəyeva — Şabran şəhəri 3 nömrəli tam orta məktəbin biologiya müəllimi
23. Gülşən Piriyeva — Salyan şəhəri 7 nömrəli məktəb-liseyin kimya müəllimi
24. Kəmalə Mustafayeva — Samux rayonu Qarayeri qəsəbə 1 nömrəli məktəb-liseyin Azərbaycan dili və ədəbiyyat müəllimi
25. Şəlalə Həsənova — Şəki şəhəri 20 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi
26. Könül Məmmədova — Siyəzən rayonu Gil-Gilçay qəsəbə tam orta məktəbinin riyaziyyat və informatika müəllimi
27. Hakim Nəcəfov — Ucar şəhəri 5 nömrəli tam orta məktəbin direktoru
28. Nəzakət Əhmədova — Xaçmaz rayonu Xudat şəhər 2 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi
29. Diləfruz Baxşəliyeva — Zəngilan rayonu 11 nömrəli tam orta məktəbin fizika müəllimi
30. Flora Kəbirova — Zəngilan rayonu 26 nömrəli tam orta məktəbin məktəbdənkənar və sinifdənxaric tərbiyə işi üzrə direktor müavini

**2.** Ümumi və məktəbəqədər təhsil şöbəsi (A.Əhmədov), Təhsil İnstitutu (E.Əmrullayev) respublika mərhələsində təcrübi cəhətdən əhəmiyyətli hesab edilən məruzələrin mətbuatda dərc olunması barədə təkliflər hazırlasınlar, növbəti illərdə pedaqoji mühazirələrin səmərə və keyfiyyətinin daha da artırılması istiqamətində müvafiq tədbirlər görsünlər.

**3.** Rayon (şəhər) təhsil şöbələri (idarələri) pedaqoji mühazirələrin qaliblərinin rəğbətləndirilməsi və həvəsləndirilməsi sahəsində əlavə tədbirlər həyata keçirsinlər.

**4.** İnformasiya şöbəsi (E.Məmmədov) əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını, Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**5.** Əmrin icrasına nəzarət nazir müavini Məhəbbət Vəliyevaya həvalə olunsun.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*12 iyul 2018-ci il*

# Mehdi Hüseynzadənin 100 illik yubileyinin keçirilməsi haqqında

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan xalqının qəhrəman oğlu, İkinci Dünya müharibəsi dövründə antifaşist müqavimət hərəkatının görkəmli nümayəndəsi, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin 100 illik yubileyinin təhsil müəssisələrində qeyd edilməsi məqsədilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Mehdi Hüseynzadənin 100 illik yubileyinin keçirilməsi ilə bağlı Təhsil Nazirliyinin tədbirlər planı təsdiq edilsin (əlavə olunur).

**2.** Tədbirlər planına müvafiq olaraq ümumtəhsil məktəbləri, məktəbdənkənar təhsil müəssisələrində Mehdi Hüseynzadənin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş geniş tədbirlər həyata keçirilsin.

**3.** Rayon (şəhər) təhsil şöbələri (idarələri) Mehdi Hüseynzadənin 100 illik yubileyi ilə əlaqədar görülmüş işlər barədə hesabatı hazırlayıb Nazirliyə təqdim etsinlər.

**4.** İnformasiya şöbəsi (E.Məmmədov) əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və Nazirliyin internet saytında yerləşdirilməsini təmin etsin.

**5.** Əmrin icrasına nəzarət nazir müavini F.Qurbanova həvalə olunsun.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*17 iyul 2018-ci il*

# Təhsil naziri Balakən şəhərində vətəndaşları qəbul edib

## Ceyhun Bayramov rayonun Şərif kəndindəki tam orta məktəbin yeni inşa edilmiş binasında yaradılan şəraitlə tanış olub



İyulun 13-də təhsil naziri Ceyhun Bayramov Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatının qərargahında Balakən, Qax, Zaqatala, Qəbələ, Oğuz və Şəki rayon sakinlərini qəbul edib.

Qəbuldan əvvəl təhsil naziri Ceyhun Bayramov və Balakən Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Azad Balayev Heydər Əliyev Parkında ümummilli liderin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin iyul ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda Balakən, Qax, Zaqatala, Qəbələ, Oğuz və Şəki rayon sakinləri ilə yanaşı burada müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Nazir qəbula yazılmış vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək onların aradan qaldırılması, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Qəbulda vətəndaşlar müəllimlərin yerdəyişməsi, ali təhsil sənədlərinin (diplomların) tanınması (nostrifikasiya), dərs yükünün artırılması, işə qəbul və digər məsələlərlə əlaqədar müraciət ediblər.

Bir sıra müraciətlərlə bağlı yerli təhsil idarəetmə qurumlarına tapşırıqlar verilib, əksər məsələlər isə yerindəcə həllini tapıb.

***

Təhsil naziri Ceyhun Bayramov Balakən rayonunun Şərif kəndində Natiq Davudov adına tam orta məktəbin yeni inşa edilmiş binasında yaradılan şəraitlə tanış olub.

Ceyhun Bayramov məktəbin sinif otaqlarını gəzib, fənn kabinetlərinə, kitabxanaya, akt və idman zallarına baxıb, müəllimlərlə görüşüb, onlarla səmimi söhbət aparıb. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün sahələrdə yüksək nailiyyətlər qazanıldığını deyən nazir bölgələrdə sosial-iqtisadi inkişafla bağlı infrastruktur layihələrinin həyata keçirildiyini diqqətə çatdırıb. Nazir bildirib ki, Azərbaycanda təhsilin inkişafına dövlət səviyyəsində yüksək diqqət və qayğı göstərilir.

Təhsil naziri regionlarda, ucqar yaşayış məntəqələrində bu cür məktəb binalarının tikintisinin ölkəmizdə həyata keçirilən sosialyönümlü siyasətin uğurla davam etdirilməsinin göstəricisi olduğunu vurğulayıb.

Məlumat verilib ki, təhsil müəssisəsinin tikintisinə 2016-cı ilin oktyabr ayında başlanılıb və bu ilin yanvarında şagirdlərin istifadəsinə verilib. 374 şagirdin təhsil aldığı məktəbin ümumi sahəsi 3000 kvadratmetrdən çoxdur. İkimərtəbəli məktəb binasında 22 sinif otağı, 3 fənn kabineti, kompüter, hərbi hazırlıq və tibb otaqları, kitabxana, bufet, akt və idman zalları, eləcə də məktəbin həyətində mini idman meydançası fəaliyyət göstərir.

# Təhsil Nazirliyində görüş keçirilib

İyulun 12-də təhsil naziri Ceyhun Bayramov Avropa Komissiyasının Tvinninq proqramının "Azərbaycanda ali təhsilin gücləndirilməsinə dəstək" layihəsinin idarəetmə komitəsinin ilk iclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Fransa, Litva və Latviyadan olan nümayəndə heyəti ilə görüşüb. Görüşdə hər üç ölkədən olan layihə rəhbərləri ilə yanaşı, həmin ölkələrin ali təhsil üzrə qısamüddətli ekspertləri də iştirak edib.

Görüşdə cari ilin aprel ayından icra olunan Tvinninq layihəsi çərçivəsində görülən işlər müzakirə olunub, layihənin həyata keçiriləcəyi iki il ərzində reallaşdırılması nəzərdə tutulan məsələlər barədə fikir mübadiləsi aparılıb.

# “Müəllim üçün metodik vəsait” kurikulumun açarıdır



**Xaləddin NİFTƏLİYEV,**
*Yevlax Şəhər Təhsil Şöbəsi Metodkabinetinin müdiri*

Hörmətli redaksiya! Mən “Azərbaycan müəllimi” qəzetinin 22.12.2017-ci il tarixli 49-cu nömrəsində “Kurikulum uğura aparan yoldur” mövzusunda məqaləmdə “Müəllim üçün metodik vəsait”in dəyərini vurğulamış və onun müəllimin fəaliyyətindəki vacib məqamları özündə əks etdirdiyini qeyd etmişdim. Lakin məktəblərdə aparılan təhlillər göstərir ki, bu gün müəllimlərin əksəriyyəti kurikulumun tətbiqinə laqeyd yanaşır, ənənəvi dərsə üstünlük verir, məktəb rəhbərləri isə bu işlərə tam nəzarət etmirlər. Fikrimcə, bu sahədə indiki vəziyyət hətta kurikulumun tətbiq olunduğu ilk illərdəkindən də aşağı səviyyədədir. Bəs, səbəb nədir? Bəlkə, rəhbərlər və ya öyrədənlər az əməkhaqqı alırlar? Bəlkə, İKT ilə təminatları zəifdir? Bəlkə, onlara qarşı tələbkarlıq azalıb?

Bu bəlkələrin sayını artırmaq da olar.

Məlumdur ki, bilik və bacarıqların diaqnostik qiymətləndirilməsindən sonra müəllimin də, məktəb rəhbərlərinin də əməkhaqqı son 30-40 il ərzində ən yüksək miqdarda artırılıb. Bu gün bir bölgədə müəllim sərf etdiyi əməyə, bilik və bacarığına, düşdüyü mühitə və dərs saatlarının miqdarına uyğun olaraq 300-450-750 manat arasında maaş alır. Məktəb rəhbərlərinin əməkhaqqı 500 manatdan aşağı deyil.

İKT ilə təminatın ildən-ilə yaxşılaşdığı da göz qabağındadır. Nootbuk, proyektor, elektron lövhə ilə bəzi məktəblərin təminatı əvvəlkindən qat-qat yüksəkdir.

Lakin tələbkarlığın artdığını desək, özümüzü aldatmış olarıq. Məktəblərdə humanist-demokratik bir mühit formalaşıb. Bu da təhsilalana da, təhsilverənə də sərbəstlik verib. Məncə, bu mühitdən sui-istifadə edənlərin sayı artıb.

Əvvəlki yazımda da qeyd etmişdim ki, kurikulumu (yeni proqramı) köhnə proqramdan fərqləndirən əsas cəhətlərdən biri burada müəllimə köməkçi vəsaitin hazırlanmasıdır. Həmin vəsaitdəki tövsiyələrə əməl olunmursa, deməli, kurikulumun tətbiqi istənilən səviyyədə olmayacaq. Gəlin özümüzə belə bir sual verək:

- Bu gün müəllimlərin hamısı metodik vəsaitdən istifadə edirmi?

- Məncə, xeyr. Hətta, mən deyərdim, böyük əksəriyyəti bu vəsaitə əhəmiyyət vermir. Çünki vəsaitlə işləmək çox zəhmət tələb edir. Bəzi müəllimlər deyir ki, “Metodik vəsait”də göstərilənlərə əməl etmək çətindir. Əslində belə deyil. Təcrübəli müəllimlərin yaxşı yadındadır. Sovet dövrünün dərslikləri gec-gec dəyişilirdi. Biz o dərslikləri az qala əzbər bildirdik, - hansı səhifədə nə var. Şagirdə öyrətmək də bizim üçün asan olurdu. Əgər öyrədən “Metodik vəsait”dən müntəzəm istifadə edərsə, yaddaşında qalacaq ki, hansı mövzunun tədrisində nələrdən istifadə etməliyəm.

Təsəvvür edin, bütün müəllimlər 10 günlük kurikulum təlimlərindən keçib, imtahan verib sertifikat alıb. Nəticə isə istənilən səviyyədə deyil. Bəs kimdir günahkar? Təlimçi? Məktəb direktoru? Ya müəllim?

Ədalət naminə deyək ki, həmin qısa müddət ərzində nələri öyrətmək mümkün idisə təlimçilər onu öyrədirdilər.

Məktəb rəhbərləri bilmədiklərini necə tələb edə bilər? Əvvəl kurikulumu məktəbi idarə edənlərə, sonra isə müəllimlərə öyrətməli idik. Biz əksinə elədik.

Tutaq ki, məktəb rəhbəri də düzgün seçilməyib, tələbkarlığı zəifdir, nəyi necə izah etməyi bilmir.

Bəs, müəllim? Bəs onun vicdanı? Mənim şəxsi fəlsəfəmə görə vicdan hər bir insanın qəlbində Allahın səsidir. Bu səsi dinləyib hərəkət etməliyik.

Bəzi müəllimlər kurikulum təlimlərində öyrəndiklərini nə tez unutdu?

Fənn üzrə məzmun xətlərini, standartları, təlim məqsədlərini bilməyən müəllimin kurikulumla fəaliyyəti dənizdə yelkənsiz gəminin hərəkətinə bənzəyir.

“Metodik vəsait”də müəllimə qruplar üzrə iş tövsiyə olunur. Müəllim aparmır. Şagirddən soruşursan:

- Sonuncu dəfə nə vaxt qruplar üzrə işləmisiniz?

- Qrupunuzun adı nə idi?

Cavab yoxdur. Belə faktların sayını artırmaq olar.

Bir sözlə, bəzi müəllimlər gündəlik dərs zamanı vəsaitdə göstərilən sualları, tapşırıqları şagirdlərə çatdırmır, onların üzərində iş aparmır.

Görünür, biz kurikulumun tətbiqi anlayışını, xüsusən, “tətbiq” sözünün leksik mənasını belə, düzgün aşılaya bilməmişik.

Bu sahədə məktəb rəhbərlərinin də üzərinə böyük məsuliyyət düşür. Onlar metodik vəsaitdə göstərilənlərin tətbiqinə ciddi nəzarət etməli, dərs dinləyərkən metodik vəsaitlə tanış olmalı, müəllimin tövsiyələrə necə əməl etdiyini izləməlidirlər.

Müəllimlərimizin bir qismi fikirləşir ki, metodik vəsait tövsiyə xarakteri daşıyır, ondan istifadə etməmək də olar.

Bəli, tövsiyədir. Kurikulumun qarşıya qoyduğu məqsəd və vəzifələrin yerinə yetirilməsi, təlim prosesində məzmun standartlarının reallaşdırılması, tədris ilinin sonunda nəzərdə tutulan təlim nəticələrinə nail olunmasında müəllimə köməklik məqsədilə hazırlanmış metodik tövsiyələrin məcmusudur. İstifadəsi isə könüllü yox, məcburi olmalıdır. Tövsiyədən o vaxt istifadə etmirlər ki, ondan yaxşısını, daha səmərəli variantını hazırlayıb istifadə edirlər. Belə müəllimlərimiz isə azlıq təşkil edir.

Bütün rayon və şəhərlərdə “Ümumi təhsildə keyfiyyət ili” və “Pedaqoji əməkdaşlıq əlaqələri” ilə bağlı yüzlərlə “açıq dərs”lər keçirilib. Kiçik nöqsanları nəzərə almasaq, hamımız bu dərslərdən xüsusi zövq alırıq. Müəllimlərdən biri motivasiyada, biri əməkdaşlığın qurulmasında, digəri qiymətləndirmədə şəxsi yaradıcılığı ilə novatorluq nümayiş etdirir.

Çox yaxşıdır. Təəssüf ki, gündəlik dərslər haqqında bunu deyə bilmirik.

“Açıq dərs”lərlə kurikulum tətbiq oluna bilməz. Bütün dərslər müasir təlim metodları ilə keçilməlidir. Bunun üçün hamımız “Müəllim üçün metodik vəsait”dən səmərəli istifadəyə üstünlük verməliyik. Ona yeniliyin açarı kimi yanaşmalıyıq. Təhsil Nazirliyinin tətbiq etdiyi yeniliklərin, şəffaflığın qarşısında elə işləməliyik ki, bizim təcrübəli və ya müasirliyin nümunəsi olduğumuz hiss edilsin. Yoxsa, düşdüyümüz köhnə mühitə “bürünüb” ellə “sürünürük”sə, heç nəyi dəyişə bilməyəcəyik.

Bütün müəllimlərə çətin və şərəfli peşələrində uğurlar arzulayıram.

# İbtidai siniflərdə ingilis dilinin tədrisinə dair

**Günay QƏHRƏMANOVA,**
*Mingəçevir şəhər N.Ahəngari adına 13 nömrəli tam orta məktəbin ingilis dili müəllimi*

Müəllim bu gün tədris materiallarının müasir tələblər səviyyəsində mənimsədilməsi uçün yeni pedaqoji texnologiyalardan və metodlardan səmərəli istifadə etməlidir. Hazırda ingilis dilini tədris etmək üçün müəllimin arsenalında istənilən qədər vəsait vardır.

Son zamanlar xarici dilin tədrisi metodikasında da çox böyük yeniliklər olmuş və şagirdlərin xarici dilə davamlı marağı təlim prosesinə də təsir etmişdir. Bu gün ingilis dilinin tədrisində fənn kurikulumlarına istinad edərək məzmun standartlarının, strategiyaların tətbiqi, yeni metodlardan istifadə onun mənimsənilməsində uğurlu vasitələrdir. İngilis dilinin tədrisi prosesində öyrənilən dilin dərk edilməsi baxımından kommunikativ oyunlarda geniş istifadə edilir. Bu baxımdan kommunikativ oyunların başlıca məqsədi qarşıya qoyulmuş tapşırığın və ya problemin həlli prosesində şifahi nitqin inkişafına nail olmaqdır.

Müasir təlim metodikalarının tədris prosesində geniş şəkildə tətbiqi fənnin şagirdlər tərəfindən qavranılmasına, dərk edilməsinə imkan yaradır. Bu baxımdan xarici dillərin tədrisi prosesində ziqzaq metodu əhəmiyyətlidir. Şagirdlərin əldə etdikləri məlumatı həm fərdi, həm də qrup halında müzakirə edərək xarici dildə ifadə etmələri şifahi nitqin, düşünmənin, dərketmənin və eyni zamanda yaddasaxlamanın inkişafına təkan verir.

Müəllimlik fəaliyyətimdə bir neçə dəfə “açıq dərs”lər təşkil etmiş və yeni təlim metodlarından istifadə edərək dərsin maksimum maraqlı keçməsinə nail olmuşam. Dərslərimdə əsasən qruplarla, cütlərlə iş və müxtəlif oyun üsullarından istifadə edirəm. Oyunlar şagirdlərin çətin öyrənmə prosesinə əyləncəli forma verir. Bu da şagirdlərin yaradıcılığının inkişafına müsbət təsir göstərir. Şagirdlər qarşılıqlı münasibətdə daha fəal olurlar. Təşkil etdiyim “açıq dərs”lərdən nümunə olaraq 3-cü sinifdə keçdiyim “Ölkələr” mövzusunda dərsimi qeyd etmək istəyirəm. Öncə onu deyim ki, dərslərimdə motivasiyaları qurarkən onun asan, şagirdlər tərəfindən anlaşılan və təbii ki, maraqlı və əyləncəli olduğu kimi, həm də düşündürücü olmasına diqqət yetirirəm. Bu mövzuda da motivasiyanı krossvord şəklində təşkil etdim. Şagirdlər krossvordu həll edərkən həm əyləndilər, həm də mövzunun adını özləri aşkar etdilər.

Mövzu maraqlı və geniş mövzudur. Şagirdlər müxtəlif ölkələr haqqında müəyyən biliklərə yiyələnir, onların adlarını bilir, bayraqlarını təsvir etməyi bacarırdılar. Mövzunu bir sıra fənlərlə - təsviri incəsənət, texnologiya, ana dili və həyat bilgisi ilə də inteqrasiya etmişdim. Qruplarla iş, kollektiv iş formalarından və klaster, beyin həmləsi, venn diaqramı kimi üsullardan istifadə etmişdim. Resurs kimi isə müxtəlif ölkələrin bayraqları, dünya xəritəsi, iş vərəqləri hazırlanmışdı. Tədqiqatın aparılması zamanı şagirdlər öz ölkələri haqda bildiklərini ifadə edərkən onlara köməklik göstərdim. Şagirdlər qruplara bölünərək təqdim etdiyim iş vərəqlərini işlədilər.Venn diaqramından istifadə edərək ölkələrin bayraqları arasında oxşar və fərqli cəhətləri yazıb təqdim etdilər.

İnformasiya mübadiləsində şagirdlər xəritədə ölkələri göstərib adını və paytaxtlarını deyir, göstərilən bayraqların hansı ölkəyə aid olduğunu müəyyənləşdirirdilər. Yaradıcı tətbiqetmə mərhələsində qruplar dialoq qurub rollu oyunlarla təqdimat etdilər. Nəticədə şagirdlər bəzi ölkələrin bayraqlarını təsvir edib onların adlarını və dərsliklərindəki mətni düzgün oxudular.

Yeri gəlmişkən qeyd edim ki, Azərbaycan məktəblərində ingilis dilinin aşağı siniflərdə tədris olunması təqdirəlayiqdir. Bu, gələcəkdə şagirdlərin ingilis dilində sərbəst danışmaları uçün yaxşı imkandır. Əgər bir şagird orta məktəbdə ingilis dilində normal səviyyədə danışmağı bacarırsa, bu onun üçün qarşıda böyük uğurların olması deməkdir. Bu səbəbdən də kiçikyaşlıların ingilis dilini oyrənməyə böyük ehtiyacları vardır. Kənardan baxarkən uşaqlara dərsi tədris etmək asan görünür. Amma əksinə, böyüklərə ingilis dilini tədris etmək kiçikyaşlılara tədris etməkdən daha asandır. Bunun bir neçə səbəbi vardır. Birinci sinifdə yalnız dinləmə və qavrama yolu ilə mənimsənilmə baş verir. İbtidai siniflərdə əsas məsələ şagirdin xarici dili öyrənməyə marağının və həvəsinin oyadılmasıdır. Ümumiyyətlə, kiçikyaşlı uşaqların öyrənmə tərzi bir qədər çətindir. Ona görə də bu siniflərdə tədris aparan müəllimin üzərinə böyük məsuliyyət düşür. İlk öncə müəllim uşaq psixologiyasını yaxşı bilməli və uşaqlarla davranışına xüsusi diqqət yetirməlidir. Bu siniflərdə dərs deyən müəllim dərsliklərdə uşaqlar üçün çətin anlaşılan çalışmaları izah etməyə çalışmalıdır. Bu, şagirdlərin dərsi yaxşı mənimsəməsində mühüm rol oynayır.

# Təlim nailiyyətlərinin yaxşılaşdırılmasında sinifdənxaric tədbirlərin rolu



**Məlahət KƏRİMOVA,**
*Salyan rayon M.Dadaşov adına Kürqaraqaşlı kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi*

Ədəbiyyat fənni üzrə məzmun standartlarını diqqətlə nəzərdən keçirmişəm. Bu konseptual sənəd, həqiqətən hər bir şagirdin ümumi inkişafı, maraq və meyillərini yüksək səviyyədə nəzərə alaraq onun ədəbi təhsili, tərbiyəsi və inkişafı üçün optimal şəraitin yaradılmasını nəzərdə tutur.

Ədəbiyyatdan məzmun standartları təhsilalanların fiziki və intellektual inkişafına, zəruri biliklərə yiyələnməsinə, onlarda sağlam həyat tərzinə və sivil dəyərlərə əsaslanan vətəndaş təfəkkürünün formalaşmasına, milli və dünyəvi dəyərlərə hörmət hissinin aşılanmasına, ailə, cəmiyyət, dövlət və ətraf mühit qarşısında hüquq və vəzifələrin müəyyən edilməsinə yönəldilmişdir. Onlar hazırlanarkən şagirdlərin yaş xüsusiyyəti nəzərə alınmış, yaradıcı inkişafları üçün şərait yaradılması diqqət mərkəzində saxlanılmışdır.

Ədəbiyyat kurikulumunda müəyyən olunmuş məqsəd onun əsas mahiyyətini, cövhərini təşkil edir. Burada aydın və konkret şəkildə göstərilir ki, ümumitəhsil məktəblərində ədəbiyyat təliminin məqsədi bədii ədəbiyyat nümunələrini, tarixi-əbədi prosesi öyrənmək, təhlil etmək, qiymətləndirmək bacarığını formalaşdırmaq, şagirdin dünyagörüşünü zənginləşdirmək, mənəvi-estetik inkişafını təmin etmək, nitq mədəniyyətinə nail olmaqdır.

Göründüyü kimi, ədəbiyyat təliminin başlıca məqsədində üç mühüm məsələ qeyd edilmişdir:

şagirdlərin dünyagörüşünü zənginləşdirmək;

mənəvi-estetik inkişafını təmin etmək;

nitq mədəniyyətinə nail olmaq.

Sadalanan bu məsələlərin hər biri digər fənlərin də qarşısında duran məqsədlərdən hesab edilir. Lakin konkret olaraq ədəbiyyat fənni üzrə bu məsələlərin reallaşdırılması istiqamətində vəzifələr yerinə yetirilərkən bədii ədəbiyyat materiallarından, eləcə də ədəbiyyatşünaslıq məsələlərinə dair mülahizələrdən istifadə edilir.

Yeni kurikulumun tələblərinə görə, həmin materiallar şagirdlərin oxusuna və mühakiməsinə təqdim olunur. Onlar özləri təlim materialları üzərində uyğun əməliyyatlar aparmaqla onun mahiyyət və məzmunu üzrə nəticəyə gəlirlər. Belə bir yanaşma tərzi şagirdin fəallığına və müstəqilliyinə imkan yaradır, onları trafaret fikir söyləməkdən, mühakimə yürütməkdən uzaqlaşdırır.

Ədəbiyyatdan yeni məzmun dedikdə sadəcə təlim materiallari yox, əvvəlcədən müəyyən olunmuş nəticələr başa düşülür. Bu nəticələr yeni ədəbiyyat kurikulumunda məzmun xətti adı ilə 3 qrupa ayrılır: “Ədəbiyyat və həyat həqiqətləri”, “Şifahi nitq”, “Yazılı nitq”.

Ədəbiyyatdan məzmun standartları ilə Azərbaycan dilindən məzmun standartları arasında uyğunluq vardır. Bu cəhət ədəbiyyatdan “Şifahi nitq” və “Yazılı nitq” məzmun xətləri ilə Azərbaycan dilindən “Oxu” və “Yazı” məzmun xətləri arasında daha çox müşahidə edilir. Fikrimcə, bu uyğunluqda bir zərurət vardır. Həmin zərurət hər iki fənnin nitq inkişafı ilə bağlı müştərək vəzifələr icra etməsindən irəli gəlir. Əslində, bu, təbii inteqrativlik kimi meydana çıxır. Görünür, dünyanın bir çox ölkələrində ümumi təhsilin icbari pilləsində dil və ədəbiyyat fənlərinin vahid bir inteqrativ fənn kimi tədris olunması da həmin cəhətlə bağlıdır.

Bundan əlavə, həm ədəbiyyat, həm də Azərbaycan dili fənlərinin tədrisində obyekt dil materiallarıdır. Tədris və təlim fəaliyyəti bu materiallar üzərində qurulur. Şagirdlərin nitq və təfəkkürünün zənginləşdirilməsi üçün bilavasitə ədəbi dilin müxtəlif üslublarında olan mətnlərindən istifadə olunur. Ədəbiyyat və Azərbaycan dili fənləri üzrə məzmun standartları arasında uyğunluqların olması muəllimin səmərəli tədris fəaliyyətinə təkan verir, təlim prosesində inteqrativliyinin nəzərə alınması baxımından imkanları genişləndirir.

Bu baxımdan dərs dediyim siniflərdə çalışıram ki, hər bir məsələni nəzərə alım. Siniflərdə hansı şagirdin yaxşı əl qabiliyyəti varsa onlara məktəb üçün stendlərin hazırlanmasını tapşırıram. Bəzən iki sinfi bir yerdə bu işə cəlb edirəm. Bu zaman gözdən qaçan məqamları daha tez görməyə imkan yaranır.

Məsələn, Salyan rayonunun bir kiçik vətəndaşı olmaqla onlara bu rayonun ziyalıları haqqında stend hazırlamağı tapşıranda şagirdlər böyük məhəbbətlə bu işlərin öhdəsindən gəldilər.

Onlara həmyerlimiz Əli bəy Hüseynzadə haqqında stend hazırlaması üçün fərqli məlumat toplamağı tapşırdım. Beləliklə, şagirdlər sinifdənxaric təlimin öhdəsindən uğurla gəldilər.

Bu yaxınlarda qərara almışıq ki, doğulub boya-başa çatdıqları Kürqaraqaşlı kəndinin nəğməkar şairi Əliağa Kürçaylı haqqında stend və guşə yaradaq.

Mən Azərbaycan dili və ədəbiyyat müəllimi kimi şagirdlərimin bilik səviyyəsini daha da artırmaq üçün müxtəlif üsullara əl atıram. Ümumiyyətlə, ədəbiyyat müəllimlərinə də tövsiyə edərdim ki, həftə ərzində bir gün ədəbiyyat dərsində sinifdənxaric oxu günü keçirsinlər. Bu, şagirdlər tərəfindən böyük maraqla qəbul olunur. Məsələn, mən 9-cu siniflər üzrə buraxılış imtahanının I mərhələsində şagirdlərin söz ehtiyatının az olması halı ilə rastlaşdım. Bu məni ədəbiyyat müəllimi kimi çox narahat etdi. Bu məqsədlə həftədə iki saat olan ədəbiyyat dərsinin bir saatını sinifdənxaric oxu üçün ayırmışam.

Şagirdlər həftə ərzində oxuduqları kitabla sinfə gəlirlər. Bu kitablar uşaqlar tərəfindən maraqla oxunur. Onlar bir dərs ərzində həm öz oxuduqları, həm də digər kitablar haqqında məlumat alırlar.

Təbii ki, müasir təfəkkür məktəbinin bir başlıca vəzifəsi də qabiliyyəti olan istedadlı şagirdləri aşkar etməkdən, onlarla düşünülmüş qaydada ardıcıl və sistemli iş aparmaqdan ibarətdir. Sinifdənxaric və məktəbdənkənar işlər bu prosesdə də böyük imkanlara malikdir. Məsələn, şagirdlər arasında əlamətdar günlərdən əvvəl şeir, inşa müsabiqəsi elan etməklə onlarda bu günlə bağlı daha dərin məlumat əldə etmə bacarığı yaratmaqdır. Mən bu məqsədlə məktəbdaxili müsabiqə keçirirəm. Bu, şagirdlərdə məktəbdənkənar ictimai işlərdə özlərinin də heç kəsdən geridə qalmaması kimi hisslərin yaranmasına kömək edir. Onlar başa düşürlər ki, özlərinin də hansısa bir tədbirdə müəyyən rolu var və bunun üçün var qüvvəsi ilə çalışırlar.

Ədəbiyyat dərslərində tez-tez şeirlər səsləndirməklə onlarda müdafiəyə həvəsi artırıram. Bir insan kimi tariximizin qan yaddaşının bizim üçün hansı izlərin buraxmasını onlara dərindən aşılayıram. Bunu qarşımda duran bir vəzifə, borc kimi görürəm. Xalqımızın azadlığı, müstəqilliyi, firavan yaşayışı üçün özünü oda yaxan şəhidlərimiz haqqında, onların valideynlərinin hansı əziyyətlər keçirməsi haqqında şagirdləri məlumatlandırıram.

Məqsədim şəhid olmuş Milli Qəhrəmanların həyatının mənasını onlara aşılamaqdır.

Təsadüfi deyil ki, dərs dediyim şagirdlər şeir müsabiqəsində yer tuturlar.

Məhz bunun nəticəsidir ki, Salyan rayon M.Dadaşov adına Kürqaraqaşlı kənd tam orta məktəbinin adı daim rayon müsabiqəsində yüksək yer tutanlar arasında olur.

# “Akademik yazı bacarığı ali məktəblərdə öyrədilməlidir”




## *Aygün Babazadə:* “Tədqiqat universitetlərinin yaradılması ali məktəblərimizin beynəlxalq nüfuzunun möhkəmlənməsinə kömək edəcək”

⇦ Əvvəli səh.1

Oruc MUSTAFAYEV

Yadda saxlamaq lazımdır ki, keyfiyyətli tədqiqat işi həm də beynəlxalq jurnalların tələblərinə uyğun formada yazılmalı və tərtib olunmalıdır. Bu özu də bir elmdir - akademik yazı elmi. Universitetlərimizdə bunu kurikulumun tərkib hissəsinə salmaq lazımdır. Alimlərimizə akademik yazı bacarığı öyrədilməlidir. Akademik yazı dedikdə, yazı metodologiyası, plagiarizm, sitatgətirmə, ədəbiyyat siyahısını necə hazırlamaq kimi məsələlər nəzərdə tutulur. Bütün bu məsələlər ali məktəblərdə xüsusi dərslərdə öyrədilməlidir. Amma, təəssüflər olsun ki, Azərbaycanda çox az sayda universitet var ki, bu sahədə kifayət qədər irəliləmiş olsun. Universitetlərimizin 90 faizində bu problem qalmaqdadır. Məsələn, bizim apardığımız vebinarların, onlayn təhsil təlimlərinin ən çox baxılan hissəsi məhz akademik yazıdır, yəni yüksək indeksli jurnallarda məqalələrə olan şərtlər və tələblərdir.

*- İndi tədqiqat universitetlərinin yaradılması gündəmdədir. Ali məktəblərimizin tədqiqat universitetinə çevrilməsi, təbii ki, onların beynəlxalq reytinqini də yüksəldəcək...*

- Birmənalı olaraq elədir. Bu, çox vaxtında verilmiş, düzgün bir qərardır. Təbii ki, dünyada tədqiqatın birinci mərkəzi universitetlərdir, tədqiqatlar universitetlərdə aparılır. Universitetlər tədqiqat mərkəzləri olduqca, yeni biliklər yaratdıqca innovasiya tsiklində daha aktiv rol oynamağa başlayacaq və ölkəmizin bilik iqtisadiyyatına keçidinin təmin olunmasında əsas dayaqlardan birinə çevriləcəklər. Eyni zamanda, düşünürəm ki, ali məktəblərə bu status verildikdən və müvafiq normativ-hüquqi baza yaradıldıqdan sonra onlar istər hökumət, istərsə də sənaye və biznes ilə kommunikasiyanın qurulmasında daha çevik və qətiyyətli olacaqlar.

*- Reytinqlərdə yüksək yerləri daha çox tədqiqat universitetləri tutur?*

- Bəli, dünyanın aparıcı reytinqlərində ilk pillələri məhz tədqiqat yönümlü universitetlər tutur. Tədqiqat universitetlərinin yaradılması ali məktəblərimizin beynəlxalq nüfuzunun möhkəmlənməsinə kömək edəcək. Universitetlərin mövqeyi yüksəldikcə, onlar daha da rəqabət qabiliyyətli olmağa başlayacaqlar. Belə olan təqdirdə xarici tələbələrin universitetlərə cəlb olunması və qəbulu artacaq. Bu, sonda universitetlərin maliyyə vəziyyətini yaxşılaşdıracaq, ali məktəblərdə tədqiqat yönümlü maddi-texniki bazanın və infrastrukturun yaradılmasını təmin edəcək. Eyni zamanda, ali məktəblərə tədris prosesinə xaricdən daha nüfuzlu alimlərin cəlb olunmasına imkan verəcək.

*- Ötən tədris ilində alimlərimiz ən çox hansı jurnallarda dərc olunub? Onların adlarını çəkə bilərsinizmi?*

- Jurnallar “Web of Science” bazasında olan nəşrlərdir. Azərbaycanda ən çox tədqiqat aparılan sahələrə uyğun olaraq alimlərimiz riyaziyyat, materialşünaslıq, fizika, kimya sahələri üzrə dərc olunurlar. Bu jurnallara “Inorganic materials”, “Russian journal of Applied Chemistry”, “Semiconductors”, “Petrolium chemistry”, “Differential Equations”, “Physical Review” aiddir. Bu jurnallar sırf yuxarıda adları çəkilən elm sahələrini əhatə edən top nəşrlərdir.

*- Bizdə “Web of Science” bazasına daxil olan neçə elmi jurnal var?*

- Hazırda Azərbaycandan bu bazaya 8 jurnal və bir konfrans materialı daxildir. Jurnallardan 4-ü AMEA-nın institutları (kimya və riyaziyyat üzrə), 2-si Bakı Dövlət Universitetinin Tətbiqi Riyaziyyat İnstitutu, 1-i Xəzər Universiteti (humanitar və sosial elmlər üzrə), 1-i SOCAR tərəfindən təsis olunub. Konfrans materialı (Conference Proceedings Citation İndex) kimi bazada indekslənən ilk beynəlxalq elmi konfrans isə BDU-nun “Fizikada müasir trendlərə dair” materialıdır. “Web of Science” elmimetrik bazasında açar kolleksiyada indekslənən jurnallar üçün impakt faktor ölçülür. İmpakt faktor jurnalın birmənalı prestij göstəricisi olub, onun nüfuzunun istinadlarda olan ifadəsidir.

Hazırda elmi bazada impakt faktora malik cəmi bir jurnalımız var ki, o da akademik Fikrət Əliyevin redaktoru olduğu BDU-nun “Tətbiqi və hesablama riyaziyyatı” (“Applied and Computational Mathematics”) jurnalıdır. Bu jurnal kifayət qədər yüksək impakt faktora (2.36) malikdir. Digər nəşrlər də var ki, onlar “yeni yaranmaqda olan jurnallar” (ESCİ) kateqoriyasına daxil olan jurnallardır. Onların hələ ki, impakt-faktoru yoxdur. Biz onlara 3-5 il vaxt qoyuruq. Onlara imkan verilir ki, uğurla fəaliyyət göstərsinlər, bu müddət ərzində kifayət qədər istinad qazansınlar. Məndə olan məlumata görə, BDU-nun ikinci jurnalı artıq kifayət qədər istinad toplayıb və o, “Web of Science”nin əsas kolleksiyasına keçmək ərəfəsindədir. Bu, akademik Fikrət Əliyevin ikinci riyaziyyat jurnalıdır.

*- Müasir dünyada elmi nəşrlərdə çap olunmaq marafonu var. Bəzən alimlər yüksək indeksi olmayan “yırtıcı” jurnallarda dərc olunur. Necə etməli ki, bizim alimlər bu yola düşməsinlər?*

- Düzdür. Mən tam razıyam ki, hazırda bütün dünyada sanki bu istiqamətdə xüsusi bir pressinq var. Artıq son illərdə böyük universitetlərdə, mən ad da çəkə bilərəm, BDU, UNEC, ADNSU, Xəzər Universitetində sırf akademik müəllim heyətinin fəaliyyətinin illik qiymətləndirilməsi aparılır. Onlarda bu qiymətləndirmələrin (reytinqlərdə olduğu kimi) əsasən 30 faizi, yəni müəllimlərin topladığı balların 30 faizi məhz elmi tədqiqat işlərinə əsaslanır. Bunlar nüfuzlu jurnallarda çıxan elmi məqalələrdir. Yəni bu tipli qiymətləndirmələr və onların nəticələrinə müvafiq olaraq alimlər stimullaşdırılır. Söhbət maddi və qeyri-maddi motivasiyadan gedir. Bu kimi motivasiya proqramları, stimullaşdırma, təbii ki, alimlər arasında rəqabət mühiti yaradır. Eyni zamanda da medalın iki üzü olduğu kimi, özünün gətirdiyi neqativ məsələni də ortaya qoymuş olur. Alimlər bu prosesdən kənar qalmamaq üçün istənilən yola əl atır, harada olur-olsun dərc olunmağa çalışırlar. Eyni zamanda, akademik dərəcə almaq ərəfəsində tədqiqatçılar üçün yüksək indeksli jurnallarda çap olunmaq məsələsi aktuallaşır. Bu pressinq onları daha tez, daha çox çap olunmağa aparır. “Yırtıcı” jurnallar isə akademik bazarda bu ehtiyacı görür və özlərinin pullu xidmətlərini təklif edirlər. Yəni elmi fırıldaqçılıqla məşğul olurlar. Onların bu fəaliyyətini biz elmi fırıldaqçılıq, qeyri-etik davranış adlandırırıq. Yəni onlar alimin işini qiymətləndirmirlər. Onların əsas və yeganə məqsədi alimlərdən pul qoparmaq, onların işini dünyanın görmədiyi və dünya akademik ictimaiyyətinin əlinin çatmadığı qondarma jurnallarda çap etdirməkdir. Yəni bu jurnalların heç biri akademik dairələrdə oxunmur, izlənilmir.

*- Yaxşı ki, oxunmur, qəbul olunmur...*

- Məncə, bu bir təkamül prosesidir. Akademik bazarda güclü rəqabət hökm sürür. Əvvəllər belə bir yanaşma var idi ki, tədqiqatçı elmi işini yazır, dissertasiya müdafiə edir, sonra elmi dərəcə alırdı. Bundan sonra o, azad fəaliyyət göstərir, tam toxunulmazlıq qazanırdı. Bu, sovet psixologiyası idi. Qərbdə isə akademik bazarda o qədər rəqabət mühiti hökm sürür ki... Hətta orada belə bir obrazlı ifadə var: “ya nəşr et, ya məhv ol”. Orada alim nəşr olunmursa, öz sahəsində ildə heç olmasa bir neçə məqalə çap etdirmirsə, onda həmin alimin universitetdə qalması və alim, akademik kimi çalışması sual altına alınır. Onlar universitetdən xaric olunurlar. Universitetin İdarə Heyəti tərəfindən onların üzərində bu dərəcədə təzyiq var. Düşünmürəm ki, onlar yalançı nəşrlərdə çap olunmurlar. Sadəcə, onlar bu mərhələni keçiblər. Biz də artıq bu mərhələdəyik, nəzarət mexanizmləri get-gedə güclənir. Əsasən də bu elmi bazanın ölkəmizə gəlişindən sonra. Artıq sadəcə nəşr yox, həm də elmi məqalənin harada, hansı jurnalda nəşr olunması şərtdir. Bu, öz-özlüyündə pozitiv bir tendensiyadır.

“Yırtıcı” jurnallar da artıq reallığın bir parçasıdır və biz təbii ki, onlarla mübarizə aparırıq. Biz hər zaman öz seminarlarımızda da alimlərimizə sırf “yırtıcı” jurnallarla mübarizə və onların tilovuna düşməmək üçün xüsusi texnika öyrədirik. Onlara “yırtıcı” jurnalları əsl jurnallardan ayırd etməyi öyrədirik. Bu da bizim işin bir parçasıdır. Biz Azərbaycan alimlərinin dünyanın nüfuzlu jurnallarında çap olunmasında maraqlıyıq. Bu da, təbii ki, elmimizin qlobal səviyyədə mövqeyinin güclənməsinə gətirib çıxaracaq.

*- Bizdə “yırtıcı” jurnallarda dərc olunanlar varmı?*

- Düşünürəm ki, bu məsələ hazırda inkişaf etməkdə olan bütün ölkələrin üzləşdiyi ən kəskin problemlərdən biridir. Mən sizə hətta bir misal çəkə bilərəm. Çin dünyada elmə ən çox maliyyə ayıran ikinci ən böyük ölkədir. Birinci olmaq hədəfləri də var. Çində son vaxtlar belə bir araşdırma aparılıb. Məlum olub ki, hökumətin elmə ayırdığı büdcənin demək olar ki, 50 faizdən yuxarısı, belə demək mümkünsə, yalançı elmə xərclənir. Onların alimləri hökumət tərəfindən maliyyələşən fondlardan (onların böyük hissəsi elmlə bağlıdır) əldə etdikləri pulları “yırtıcı” jurnallarda nəşr olunmağa xərcləyirlər. Bu vəsaitlər isə həm elmi tədqiqatların aparılması, həm də elmi məqalələrin nəşrini əhatə edir. Çin hökumətinin qəti mövqeyi belədir ki, əgər alimlər bu vəsaitləri “yırtıcı” jurnallarda çap olunmağa sərf edəcəklərsə, bu, onların akademik karyerasına son qoyacaq. Müəyyən xüsusi xəbərdarlıqdan sonra alim universitetdən qovula bilər. Bundan əlavə, alimlər beynəlxalq və yerli layihələrdə iştirakdan məhrum ola bilərlər ki, bu da istənilən tədqiqatçı üçün çox neqativ haldır.

*- Biz “yırtıcı”larla necə mübarizə apara bilərik?*

- Bizim ölkədə universitet alimlərimizin “yırtıcı” jurnallarda nəşrinin qarşısını alacaq hələ də sərt tədbir yoxdur. Bu, hələlik məlumatlılıq səviyyəsindədir. Mən belə deyərdim ki, alimlərimizin çox zaman “yırtıcı” jurnallara düşməsi məlumatsızlığın nəticəsidir. Onlar özləri də bilmədən həmin jurnalların tələsinə düşürlər. Çünki elmi rəhbərin basqısı altındadırlar: “Tez bir zamanda çap olunmaq lazımdır”, “müdafiə vaxtı yaxınlaşır” və s. Buna görə də onlarda stress olur və bilmədən, məlumatsızlıq ucbatından hansısa bir məbləğ müqabilində əllərinə düşən ilk jurnalda çap olunmaq istəyirlər. Mənə universitetlərdə alimlərimiz yaxınlaşıb deyirlər, “Aygün xanım, mən bu jurnalda çap olunmuşam, görün o jurnal “Web of Science”dədir , ya yox”. Mən də baxıb görürəm ki, təəssüflər olsun ki, deyil. Ancaq alimlərimiz çap olunmaq üçün bu jurnallara nə qədər pul veriblər! Nəticə belədir ki, onların vəsaitləri də gedir, müəyyən mənada karyeraları da pozulur. Çünki nüfuzlu jurnalların redaktorları elmi işləri qəbul edən zaman müəlliflərin akademik fəaliyyətlərinə baxırlar ki, bunlar harada çap olunublar. Və məlum olanda ki, müəlliflər “yırtıcı” jurnalda çap ediliblər, bu onların akademik imicinə çox pis təsir edir. Onlar işdən qovulur və qrantlara müraciət edə bilmirlər. Yəni bir alim kimi ölkənin elmi proseslərindən kənarda qala bilərlər. Bəzi ölkələrdə bu məsələyə liberal yanaşma mövcuddur. Universitetlərə sərbəstlik verilir ki, tədqiqatçının yalançı jurnalda çap olunub-olunmadığını müəyyən etsin. Məsələn, Çində bu, mümkün olmadı. Hökumət bu vəzifəni universitetlərdən alaraq Təhsil və Elm Nazirliyinə verdi. Çünki gördülər ki, son 20 ildə vəsaitlər düzgün xərclənməyib. Bizdə isə bu proses, yəni elmi tədqiqat işlərinin ekspertizası Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən həyata keçirilir. Lakin komissiya qiymətləndirmə və ekspertizanı məhz elmi dərəcələrin və elmi adların verilməsi çərçivəsində aparır. Elmi fəaliyyətin qiymətləndirilməsi davamlı, dayanıqlı bir proses olmalıdır. Düşünürəm ki, universitetlərimizdə elmi fəaliyyətə nəzarət mexanizmi müntəzəm tətbiq edilsə və ya digər ölkələrdə olduğu kimi, ayrıca bir qurum tərəfindən aparılsa, şəffaflıq və qərəzsizlik daha yüksək səviyyədə təmin olunar.

# İnsan və robot arasında fortepiano yarışması keçirilib

Yusif ƏLİYEV



Pekinin konsert zalında “Teotronico” adlı robot və italyan pianoçu Roberto Prosseda arasında fortepiano yarışması keçirilib. İnsanla robotun “döyüşü”ndə iştirakçılar bərabər səviyyədə çıxış ediblər.

**www.robo-hunter.com** saytının məlumatına görə, rəqiblərin fortepiano üzrə praktik olaraq, bütün texnikalara bələd olub-olmadıqları yoxlanılıb. Onlar Şopen, Mendelson, List və Bethovenin musiqilərini ifa ediblər. Dinləyicilərin qiymətləndirməsi onların alqışları ilə müəyyən edilib.

İfanın müddəti, dəqiqliyi və çevikliyi kimi kateqoriyalarda robot qələbə qazanıb. Lakin fortedən pianoya keçid, ifanın fasiləsizliyi və emosionallığına pianoçu daha yaxşı müvəffəq olub. Prossedanın sözlərinə görə, baxmayaraq ki, insan ifa zamanı səhv edə bilər, maşınlar heç vaxt real musiqiçiləri əvəz edə bilməyəcəklər.

“Teotronico” 53 barmağının köməyi ilə görkəmli pianoçuların musiqilərini ifa etməklə yanaşı, həm də musiqi bəstələyə, insanlarla ünsiyyət saxlaya və öz emosiyalarını ifadə edə bilir.

# Süni intellekt beyin şişini həkimlərdən daha tez diaqnozlaşdırıb




Pekin xəstəxanalarından birində hazırlanmış “BioMind” süni intellekti beyin şişinin müəyyənləşdirilməsində təcrübəli həkimləri üstələyib.

**www.life.ru** saytının məlumatına görə, rəqəmsal doktora və 15 aparıcı həkimə beyin şişinin olduğu ehtimal edilən 225 xəstənin kartoçkası təqdim edilib. Neyroşəbəkə xəstəliyi 83 faiz dəqiqliklə aşkarladığı halda, həkimlər bu vəzifənin öhdəsindən 63 faiz dəqiqliklə gəliblər. Bundan başqa, “BioMind” süni intellekti 225 tibbi kartoçkanın öyrənilməsinə 15 dəqiqə sərf edib, həkimlər isə diaqnozlaşdırma ilə, təxminən, 30 dəqiqə məşğul olublar.

Neyroşəbəkəyə xəstəliklərə diaqnoz qoymağı öyrətmək üçün ona Çin xəstəxanalarının arxivindən minlərlə kartoçka göstərilib.

# Robot neyrocərrahları 30 dəqiqə ərzində öyrədəcək



“CMR Surgical” şirkətinin mütəxəssisləri neyrocərrahların öyrədilməsi müddətini 80 sessiyadan yarım saata qədər azalda bilən “Versius” adlı tibbi robot yaradıblar.

**www.robo-hunter.com** saytının məumatına görə, neyrocərrahlar tez-tez təcrübədən keçirdikləri texnikanı “açar yeri cərrahiyyəsi” adlandırırlar, çünki bütün əməliyyat açar üçün kəsik ölçüsündə olan dəlik vasitəsilə aparılır. Bu texnikanın öyrənilməsinə çox vaxt (məsələn, təcrübə keçən cərrahlara 60-80 saat) tələb olunur. Yeni robot bu vaxtı əhəmiyyətli dərəcədə azalda bilər.

“Versius” çiyin, dirsək və biləkləri olan 3 əldən ibarətdir. Avtomatlaşdırılmış əllər cərrahın nəzarəti altında qalxır, enir və ehtiyatla çevrilir. Robot histerektomiya, qulaq, burun və boğaz cərrahiyyəsi daxil olmaqla, “açar yeri”ndə əməliyyatların keçirilməsi üçün nəzərdə tutulub. Mütəxəssislər iddia edirlər ki, robotdan istifadə xərcləri adi əməliyyatlara nisbətən çox da yüksək olmayacaq.

Həmçinin “Versius” neyrocərrahlara xroniki xəstəliklərin yaranmasına yol verməməyə kömək edəcək. İstehsalçıların sözlərinə görə, ən mürəkkəb manipulyasiyaları cərrahların əvəzinə robot icra edəcək.

“Versius”un kliniki istifadə üçün tətbiqinə razılıq verilərsə, robot artıq 2018-ci ildə Böyük Britaniyanın tibb müəssisələrində quraşdırılacaq.

# Aeroportlarda təhlükəsizliyin yoxlanılması üçün 3D-skaner hazırlanıb



Çində aeroportlarda təhlükəsizliyin yoxlanılması üçün millimetrlik dalğalarda işləyən üçölçülü skaner yaradılıb. Yeni qurğu sürətli reaksiyası, yüksək dəqiqliyi ilə seçilir və metal detektorları ilə müqayisədə daha az işçi qüvvəsi tələb edir.

**www.belta.by** saytının məlumatına görə, skaner ölkənin iri raket istehsalçısı - Çin Aerokosmik Elm və Sənaye Korporasiyasının (China Aerospace Science and Industry Corporation - CASIC) tərkibinə daxil olan akademiya tərəfindən hazırlanıb.

Bildirilir ki, qurğu insanın geyimi altında gizlədilən obyektlərin aşkarlanması üçün elektromaqnit şüalanma formasından istifadə edərək bütün bədəni vizuallaşdırır. O, 1 saniyə ərzində 89-dək təhlükəli və ya riskli əşyanı, o cümlədən bədənin skan edilməsi qurğularının müəyyənləşdirə bilmədiyi tezalışan mayeləri aşkarlaya bilir.

Cihaz 95 faiz dəqiqliklə işləyir. Bu isə o deməkdir ki, əksər təhlükəsizlik xidməti əməkdaşları çətin əl yoxlamasından azad ediləcək. Qurğu yaradıcılarının sözlərinə görə, skaner nəzarət-buraxılış məntəqələrinin fəaliyyətinin effektivliyini artırmaqla yanaşı, sərnişinlər üçün də rahat olacaq.

# Bir dilin itməsi - bir dünyanın yoxa çıxması

## Dilini itirmiş şəxsin “etnik sütunu” qeyb olur

**Rüstəm QARAXANLI**

2013-cü ilin mayında Fransanın aparıcı “Liberation” qəzeti tam olaraq ingilis dilində çap olundu. Həmin sayın manşet yazısının başlığı belə idi: “Lets Do İt!”. Bu yazı o ərəfəyə təsadüf edirdi ki, parlamentə çıxarılmış qanun layihəsinə görə, Fransanın bəzi universitetlərində təhsil ingiliscə aparıla bilərdi. Qəzetin köşə yazarları ictimaiyyəti özünü “mühasirədə olan sonuncu qal kəndinin sakinləri” kimi aparmaqdan qurtulmağa çağırırdılar. Xatırlayırsınızsa, məşhur fransız komiks qəhrəmanı Asteriks romalılardan müdafiə üçün “sonuncu qal kəndinə” çəkilmiş və italyanları “Qalların ölkəsi”nə gəlmələrinə “peşman etmişdi”.

Sözügedən komiks ötən əsrin 50-ci illərinin məhsulu idi. O dövrdə Fransa iki antoqonist siyasi xəttin çəkişmə meydanına çevrilmişdi: bir tərəfdən milliyyətçi mövqedən çıxış edən, fransız dilinin qorunmasını istəyən Şarl de Qol, digər tərəfdən isə amerikapərəstlər. Məşhur “franingilis dili” deyimi də elə həmin illərdə qrammatikaçı Maks Rat tərəfindən dövriyyəyə buraxılmışdı. Fransada dilin qorunması məsələsi olduqca həssas mövzudur. 1635-ci ildə yaradılmış Fransa Akademiyasının əsas məqsədlərindən biri də elə fransız dilinin İtaliyadan, daha dəqiqi isə Vatikandan gələn təsirlərdən qorumaq idi. Hazırda bu məqsədlə parlament tərəfindən qəbul olunmuş bir sıra aktlar mövcuddur. Dil dövlət səviyyəsində qorunur və Britaniya Birliyinə qarşı yaradılmış Beynəlxalq Frankofoniya Təşkilatının “onurğa”sını da məhz fransız dili amili təşkil edir.

### 7 min dildən tən yarısı yoxa çıxacaq

Prezident İlham Əliyev Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında Sərəncam imzaladı. Avqustun 1-dən qüvvəyə minəcək sənədə görə, yaxın aylar ərzində sərəncamın adından da göründüyü kimi, ana dilinin yad təsirlərdən qorunması məqsədilə kompleks tədbirlərin həyata keçirilməsi planlaşdırılır. Bu artıq danılmaz bir reallıqdır ki, dilin digər dillərin təsirinə məruz qalması dövrümüzdə daha intensiv xarakterlidir, nəinki yarım əsr bundan əvvəl, Fransada mövcud olan dünyagörüşlərinin qarşıdurması zamanında. Sərhədlər açıq, get-gəl mütəmadi xarakter daşıyır, KİV-lərin və bədii ədəbiyyatın təsiri, insanların birdən artıq dili öyrənmələri və bilmələri, ən əsası isə internet. Qorunmaq getdikcə çətinləşir və bu baxımdan, proses savadlı kompleks yanaşma tələb edir. Əsasən də elektron məkanda.

Bəşəriyyət dillərin kütləvi şəkildə sıradan çıxması prosesi ilə üzüzədir. Dilin yoxa çıxması bütöv bir biliklər sisteminin qeybə çəkilməsi deməkdir. Hər dilin “ölüm”ü ilə bərpa edilməyən mədəni irsi, ətraf dünyanın unikal perspektivini, elmi, tibbi, botanik bilikləri itirmiş oluruq. Ən əsası isə bütöv bir cəmiyyətin yumora, sevgiyə, həyata olan baxışlar toplusu yaddaşlarımızdan silinir. Biz xalqların çoxəsrlik yaddaşının yoxa çıxmasının şahidlərinə çevrilirik. Düzdür, dillərin də öz ömürləri var, dəyişirlər, yoxa çıxırlar. Dillərin qeyb olunması yenilik deyil. Ancaq dövrümüzdə bu prosesin hansı sürətlə cərəyan etməsi, həqiqətən də belə demək mümkündürsə, qorxuludur. Yaxın yüz il ərzində hazırda mövcud olan 7000 dildən tən yarısının yoxa çıxacağı ehtimal edilir. Orta hesabla hər iki həftəyə bir dil sıradan çıxır. Alimlərin fikrincə, bu proses Yer kürəsindəki biomüxtəlifliyin getdikcə kasadlaşmasından daha sürətlə gedir.

“Dillər nə vaxt ölür” adlı kitabın müəllifi Devid Harrisonun sözlərinə görə, hazırda dillərin 40 faizini linqvistik “Qırmızı kitab”a daxil etmək olar. Müqayisə üçün canlılar aləmində vəziyyət nisbətən ürəkaçandır: bitkilərin 8, heyvanat aləminin isə 18 faizi təhlükə altındadır. Alimlər hesab edir ki, bir dilin digərini “udması” tarix boyu olub. Ancaq indi bütün dünyanın vahid informasiya məkanına çevrilməsi “genosid”i sürətləndirib. Proses iki paralel xətlə gedir: bir tərəfdən nisbətən iri dillər xırda dilləri məhv edirlər, digər tərəfdən isə ingilis dili bütün dilləri.

Bir qrup elm adamı dillərin digərləri tərəfindən assimilyasiya edilməsində mənfi heç nə görmür. Onların fikrincə, bu imkan verəcək ki, qloballaşan dünyada kiçik xalqlar böyüklərin dillərində danışmaqla inteqrasiya proseslərini asanlıqla keçsinlər. Onların sözlərinə görə, onsuz da əvvəl-axır dünyada hamı vahid dildə danışacaq və bu barədə müqəddəs İncil kitabında da eyhamlar var. Təbii ki, ehtimallar öz yerində, ancaq fakt ondadır ki, bir dilin itməsi bir dünyanın yoxa çıxması anlamına gəlir. Məsələn, şimalda yaşayan eskimosların dilində qarın 40 etimologiyası var. Bu zənginliyi haradan tapacağıq, nə ilə kompensasiya edəcəyik? Braziliyadakı kayapo dilinin 4 min nəfər təmsilçisi yüzillər boyu arıları müşahidə edərək, elmə böyük bir töhfə veriblər: onlar hər bir arı növünün hansı çiçəklərlə qidalanması, hərəkət trayektoriyasını öyrənməklə müəyyən ediblər ki, bu uçan həşəratların 56 növü var! Özü də kayapo dilində hər növün öz adı olmaqla. Yaxud seltal hinduları bir-birindən fərqli olmayan kəpənəkləri müşahidə etməklə göstəriblər ki, onlar 10 növ ayrı-ayrı canlılardır. Təbii ki, seltal dilində hər birinin fərqli adı var. Məhz buna görə də dilin yoxa çıxması həm də biologiya elminə sarsıdıcı zərbə deməkdir. “Biz elə bir əsrdə yaşayırıq ki, informasiya və biliklər böyük varlıq hesab olunur, ancaq biz minillər boyu toplanmış məlumatların itirilməsi ilə üzüzə qalmışıq. Bir çox bioloji növ yazısı olmayan dillərdə kodlaşdırılıb. Biz o dilləri bərpa etməklə bütöv ekosistemləri qorumuş olarıq” - deyə Devid Harrison yazır.

**Dillərin sıradan çıxması problemindən danışarkən dünyada mövcud olan 5 qaynar nöqtə nəzərdə tutulur. Bunlardan biri Rusiya ərazisindədir - Sibir və Uzaq Şərq. Dünyanın itən dillərinin atlasını tərtib edən UNESCO-ya görə, Rusiyada 120 dil təhlükə altındadır, 15 dil tamamilə sıradan çıxıb. Rusiyanın şimalında yaşayan kerek xalqı var, cəmi 4 nəfər qalıblar.**

### Dil itəndə nələr olur?

Hesab olunur ki, dillərin sıradan çıxması problemindən danışarkən dünyada mövcud olan 5 qaynar nöqtə nəzərdə tutulur. Bunlardan biri Rusiya ərazisindədir - Sibir və Uzaq Şərq. Dünyanın itən dillərinin atlasını tərtib edən UNESCO-ya görə, Rusiyada 120 dil təhlükə altındadır, 15 dil tamamilə sıradan çıxıb. Rusiyanın şimalında yaşayan kerek xalqı var, cəmi 4 nəfər qalıblar. Heç biri də ana dilini bilmir, çukçalar tərəfindən assimilyasiya olublar. Ümumiyyətlə, Rusiyada yaşayan 14 xalqın yazısı tamamilə yoxdur, 40 xalq isə ana dilində təhsil almır.

Hesab edilir ki, dilin itməsi ilə etnosun böyük bir qisminin marginallaşması baş verir. İnsanlar hətta təbiətə də fərqli yanaşır, onu qorumurlar. Belə demək mümkündürsə, bir günlə yaşayırlar. Dilini itirmiş şəxs “etnik sütunu”nu qeyb etmiş olur. Rusiya üçün aktual olan səhnə bundan ibarətdir: kiçik xalqlardan olan ailələrdə milli mənsubiyyətin qorunması cəhdləri varsa, övladları təsirləri daha asan keçirirlər. O ailədə ki, dil və milli identlik itirilir, yeniyetmə və uşaqlarda belə, alkoqolizm və narkotiklərə meyil çoxalır.

Dilin itməsi ilə daha nələr itir? Mətbəx, adətlər, ənənələr, şifahi ədəbiyyat, qısası - qan yaddaşı! Rusiyanın şimalındakı əhalinin yediyi yeməklər getdikcə dünyanın əksər yerlərində yeyilən vitaminsiz “fastfud”dan ibarət olur. Halbuki bu xalqlar minillər boyu dəniz məhsulları, vitaminlərlə bol heyvan əti ilə qidalanıblar. Bu, ilk növbədə azyaşlı nəslə təsirsiz ötüşmür.

Dil niyə yoxa çıxır? Yuxarıda ümumi səbəbləri yazdıq. Əlavə edək ki, daha bir güclü amil sosial səbəblərdir. Rəqabətə tab gətirmirlər. Gəlin ingilis, fransız, Çin, ispan, rus dillərini qoyaq kənara, Qafqazda xırda dillər var ki, heç bir təhlükə hiss etmirlər. Məsələn, beştin dilində bir neçə yüz nəfər danışır. Yüksək dağlıq ərazilərdə yaşadıqlarından iri dillərin təsirindən sığortalanıblar. Uzaq Şərqdə ulçi xalqı var, təqribən 1500-1700 nəfərdirlər. Onlar da eyni səbəbdən heç bir təhlükə hiss etmirlər. Yakutiyada 300 min nəfərlik yakutlar bütün digər xırda dilləri assimilyasiya ediblər. Çünki çox sıx yaşayırlar. Mordvalılar, təqribən, bir milyondurlar. 2013-cü ilin siyahıyaalmasının nəticələrinə görə, mordva dilində danışanların sayı 200 min nəfər azalıb. Onlardan az olan mariylər və komilərdə bu tendensiya elə də sürətlə getmir.

### İtmiş dil bərpa oluna bilərmi?

Bunun bariz nümunəsi var - ivrit dili. Neçə əsrdir bu dil dini rituallar üçün istifadə edilib. İndi isə minlərlə insan ivrit dilində danışır. Reallıq göstərir ki, belə əks proseslərin baş verməsi üçün xalq yüksək etnik özünüdərkə malik olmalıdır. Elə hallar da olur ki, itmiş, yaxud itmək astanasında olan dil mənsub olduğu xalqın daha iri qonşusu tərəfindən xilas edilir. Məsələn, Yaponiyada ayn dili. Aynlar bir neçə min nəfərdirlər. Demək olar heç biri doğma dildə danışmır. Hazırda Yaponiya hökuməti dilin bərpası istiqamətində bir sıra addımlar atır. Dərnəklər yaradılır, KİV-də elanlar verilir. Hesab olunur ki, bu addımlar dili tam bərpa etməsə də, aynlarda milli özünüdərk hissini yüksəldəcək. Yeri gəlmişkən, tarixçilərə görə, yaponların bu addımı bir növ “günah yumaq”dır, çünki aynları vaxtilə özləri assimilyasiya ediblər.

Elə hallar da olur ki, dil faktiki olaraq itir, ancaq xalqlar qalır. Tipik nümunə şotlandlar və irlandlardır. Şotlandların çox az qismi öz dilində danışır, ancaq özünüidentifikasiyaları qalır. İrlandlardan, ümumiyyətlə, danışmağa dəyməz. Öz dillərində çox az danışırlar, ancaq heç biri deməz ki, mən ingilisəm.

Avropanın iri dilləri də təhlükədədirlər. Bu təhlükə, məlum olduğu kimi, Dumanlı Albion və okeanın o tayından gəlir. Alman, fransız, italyan, rus, ispan dilləri ingilis dilindən ciddi təsirlər görürlər, gündəlik dövriyyəyə, əsasən də KİV dilinə saysız-hesabsız ingilis sözləri və ifadələri daxil olur. Bu dillər də itəcəkmi? Çünki proqnozlaşdırılır ki, bir müddət sonra dünyada vahid ünsiyyət dili olacaq və istisna deyil ki, söhbət ingiliscədən gedir. Rus dili mütəxəssisi Leonid Krısin qorxmamağı məsləhət görür və onun öz arqumentləri var: “İngilis dilindən gələn təsirlər qrammatikaya toxunmur. Qrammatika hər bir dilin fəqərə sütunudur. Yeni sözlər gəlir, qrammatika qalır, leksika isə “zibillənir”, dil özünü qoruyub saxlayır”.

Krısinin fikrincə, qlobal dəyişikliklər dərhal baş vermir, bəzən minillər tələb edir. Dilin dəyişməsi miqrasiya, etnik proseslərin nəticəsidir. Məsələn, Rusiyada daha təhlükəlisi digər etnoslardan olan böyük miqrant ordusunun cəmiyyətdə özünə yer etməsidir. Rus dilinə təhlükə buradan gələ bilər. O ki qaldı ingilis dilinə, paradoksal mənzərə müşahidə olunur: dünyanın yarısı ingiliscə danışır, amma onlar bu dili özlərinə doğma hesab etmirlər. Çin, ərəb və ispan dilləri ilk “üçlüy”ü müəyyən edirlər. Ona görə də demək olmaz ki, hamı ingiliscə danışacaq. Sadəcə olaraq, əksəriyyətin iki dili olacaq. Belə bir ehtimal var ki, dünyada ingilis dilini də əvəzləyəcək ortaq bir dil peyda olacaq, ancaq hətta bu halda belə iri dillər özlərini qoruyub saxlaya biləcəklər. Bizdən sonrakı nəsillər qlobal ikidillilik mühitində yaşayacaqlar.

### Dilimizi qoruyaq!

Ölkələrdən asılı olaraq dillərin də statusları müxtəlifdir: dövlət, rəsmi, hərdən milli. O ölkədə ki, əhali birdən artıq dildən istifadə edir, burada rəsmi statuslu dillərin sayı da birdən çox olur. İsveçrədə 3 rəsmi dil var: alman, fransız, italyan. Dövlət dili isə 4-dür. Adları çəkilənlərlə yanaşı, bir də retroroman dili. 1982-ci ildə Kanadada qəbul edilmiş 12 saylı Konstitusiya aktına əsasən iki rəsmi dil var: ingilis və fransız. Halbuki fransızca danışanlar cəmi iki əyalətdə məskunlaşıblar. İrlandiyada yerli və ingilis, Finlandiyada fin və isveç dilləri rəsmi statusa malikdirlər. Elə yerlər var, orada etnoslar arasındakı ünsiyyət üçün ən azsaylının dili qəbul edilib. Məsələn, Tanzaniyada suaxili, İndoneziyada malay dili.

Elə ölkələr və regionlar da var, ünsiyyət üçün kənardan əxz olunmuş dil istifadə edilib. Misal üçün, orta əsrlərdə Avropada latın dili ünsiyyət üçün istifadə edilirdi. VI-X əsrlərdə İran və Orta Asiyada ərəb dili bu statusa malik olub. Klassik çincə - venyan Yaponiya, Vyetnam, Koreyada işlənilib. Bəzi keçmiş müstəmləkələrdə bir vaxt işğalçı sayılan dil rəsmi dil kimi qəbul edilib. Qana, Qambiya, Keniya, Nigeriyada ingilis rəsmi dildir. Qabon, Zair, Konqo, Mali, Niger, Toqoda fransız dili. Anqola, Mozambikdə portuqalca. Keniyada ingilis dili ilə yanaşı, fransızca da rəsmi statusludur. Mavritaniyada milli dil ərəbcədir, rəsmi dil fransızca.

Fransız filosof və ədəbiyyatşünas Rolan Batr deyir ki, hər bir dil bizi nəyəsə məcbur edir. O dildə danışmağa, yaxud düşünməyə. Necə ki, biz dil vasitəsilə danışırıq, eləcə də dil bizim vasitəmizlə danışır. Belə bir deyim var: fransızlar dillərini ingilislər valyutalarını qoruduqları kimi mühafizə edirlər. Gəlin biz də dilimizi qoruyaq, elə öz valyutamızla birlikdə!

# “Gələcəyin energetikası: problemlər və perspektivlər”

## ADNSU-da bu adda keçiriləcək beynəlxalq konfransa hazırlıq gedir

İyulun 18-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektoru, professor Mustafa Babanlı sentyabr ayında ADNSU-da keçirilməsi nəzərdə tutulan “Gələcəyin energetikası: problemlər və perspektivlər” adlı beynəlxalq konfransın işçi qrupu ilə görüşüb.

Görüşdə Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Milli Nüvə Tədqiqatları Mərkəzinin sədri, akademik Adil Qəribov, sədr müavini Cəlal Nağıyev, ADNSU-nun elm və texnika üzrə prorektoru, dosent Rauf Əliyarov, energetika fakültəsinin dekanı, dosent Zakir Həsənov, dekan müavini Orxan Kərimzadə iştirak ediblər.

Akademik Adil Qəribov müasir energetika sahəsindəki yeniliklər barədə danışaraq sentyabr ayında keçirilməsi nəzərdə tutulan beynəlxalq konfransın əhəmiyyətini vurğulayıb. ADNSU-nun energetika sahəsində Azərbaycana dəyərli mütəxəssislər qazandırdığını qeyd edən akademik A.Qəribov konfransın təşkilində göstərdiyi dəstəyə görə ADNSU-ya təşəkkürünü bildirib.



Professor Mustafa Babanlı beynəlxalq konfransın həsr olunduğu problemin daim aktual olduğunu diqqətə çatdırıb. Konfransın bu sahədə yeniliklərin və təcrübənin paylaşılması baxımından mühüm önəm daşıdığını qeyd edən rektor M.Babanlı ADNSU-da energetika fakültəsi çərçivəsində görülən işlər və qarşıdakı planlar barədə qonaqlara məlumat verib.

Görüşdə konfransın proqramı, dəvət olunacaq qonaqların siyahısı və müzakirə olunacaq mövzular haqqında fikir mübadiləsi aparılıb.

# ADAU-da 1-ci Beynəlxalq Yay Məktəbinə start verilib

Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) “Davamlı inkişaf hədəfləri” adlı 1-ci Beynəlxalq Yay Məktəbi başlayıb. Bu münasibətlə universitetin 2 nömrəli tələbə evinin akt zalında açılış mərasimi keçirilib. Universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov qonaqları salamlayaraq, ilk dəfə keçirilən məktəbin fəaliyyətinə uğurlar arzulayıb. Rektor bildirib ki, məktəbin təşkilində məqsəd yerli və xarici ali təhsil müəssisələrinin tələbələrini bir yerə toplamaqla, davamlı inkişaf hədəflərini, onların icra vəziyyətini və qlobal əməkdaşlığı müzakirə etməkdir. 2018-ci ilin 16-28 iyul tarixlərində keçiriləcək məktəbdə ölkəmizin 7 və xarici dövlətiərin 12 ali təhsil müəssisəsindən 34 tələbə iştirak edir. Məktəbin iştirakçıları universitetin tələbə evində yaşayış yeri ilə təmin olunublar.

Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İnam Kərimovun təbriklərini çatdıran Kənd Təsərrüfatı Nazirliyinin İnsan Resursları Departamentinin direktoru Elvin Paşayev ölkəmizdə aqrar sahənin, aqrar elm və təhsilin inkişaf istiqamətlərindən, qarşıda duran prioritet vəzifələrdən danışıb, yay məktəbinin iştiraçılarına uğurlar arzulayıb.

Tədbirdə Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatının sədri Naqif Həmzəyev, Milli Məclisin deputatı, Gəncə Dövlət Universitetinin elm və innovasiyalar üzrə prorektoru, dosent Pərvin Kərimzadə, AMEA Gəncə Regional Bölməsinin akademik-katibi, akademik Fuad Əliyev, Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Müşfiq Cəfərov çıxış edərək yay məktəbinin təşkilinin əhəmiyyətindən və ADAU-nun beynəlxalq səviyyədə tanınmasında rolundan danışıblar.

Yay məktəbində davamlı inkişaf hədəflərinə dair məsələlər müzakirə olunmaqla yanaşı, iştirakçılar üçün ölkəmizin füsunkar yerlərinə, regionda yerləşən fermer təsərrüfatlarına, Region Aqroparka, Qəbələ Heyvandarlıq Kompleksinə və digər yerlərə turlar təşkil olunacaq.

Tədbirin təşkilində göstərdikləri dəstəyə görə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycan üzrə Tərəfdaşlıq və Əlaqələndirmə ofisinin, “Aztexnika” və “Grand Motors” şirkətlərinin rəhbərlərinə təşəkkürünü bildirən rektor deyib ki, bu, ölkədə müəssisə və təşkilatlar tərəfindən ADAU-da rəqabətədavamlı mütəxəssis hazırlığı istiqamətində aparılan işlərə inam və etimadın nəticəsidir.

# Əfsanəyə dönmüş məhəbbət musiqi dilində



## *Ayla Kəlbiyeva:* "Məhəbbət əfsanəsi" adlı solo konsertimdə çox həyəcanlı idim"

**Sifai SƏFƏROVA**

Onunla həmsöhbət olmaq mənim üçün olduqca xoş idi. Yeri gəlmişkən, hər həmsöhbət adama bu qədər xoş təsir də bağışlamır. 13 yaşlı bir yeniyetmənin fikir və mülahizələri isə əhvali-ruhiyyəmə xoş ovqat qatır, açığı həm təəccüblənir, həm də təsirlənirdim.

### O qədər narahat idim ki!

- O qədər narahat idm ki! Tez-tez saata baxır, bir azdan başlayacaq konsertin necə qarşılanacağı barədə düşünürdüm. Həyəcandan sifətim də qızarmışdı. Bu, doğrudan da olduqca məsuliyyətli bir iş idi. Məramına və mahiyyətinə görə başqa konsert proqramlarından əhəmiyyətli dərəcədə fərqlənən bu konsertə gələnlər də elə kövrək notlarla köklənmişdilər. Bu konsertdə könül oxşamaqdan çox ruhu oxşamaq lazım gələcək, notların dili ilə ürəklərə sərinlik gətirməli olacaqdım. Nəhayət ki, musiqisevərlər, dostlar, tanışlar "Yaxt klub"a toplaşdılar və konsertin başlanması elan olundu.

### İlham və Fərizənin xatirəsinə

Hər kəs öz yerini tutduqdan sonra səhnəyə dəvət olundum və F.Mendelsonun "Sözsüz mahnı"sını səsləndirdim. Hiss etdim ki, ifam tamaşaçıları heyran edib. İlham və Fərizənin əfsanəvi məhəbbətləri fonunda qəhərdən sözümün tükəndiyini söylədim. Zalın tərtibatı, yanan şamlar, yerə səpilən qızılgül ləçəkləri tamaşaçılara kövrək anlar yaşatdı. Mən bu solo konsertimi Şəhidlər xiyabanında uyuyan İlham və Fərizənin xatirəsinə həsr etmişdim. Axı, iyunun 30-da İlham və Fərizənin - iki sevən qəlbin keşməkeşli həyat yoluna birgə qədəm qoymasının 29 ili tamam olurdu. 1990-cı ilin qanlı Yanvarı İlhamı Fərizədən ayırsa da, gənc qadın ölümə meydan oxudu və bətnindəki körpəni də özü ilə bərabər haqq dünyasına, İlhamın qovuşduğu haqq dünyaya apardı. Qeyd edim ki, solo konsertimə başlamazdan öncə iştirakçılar İlham və Fərizənin ruhunu bir dəqiqəlik sükutla yad etdilər. Azərbaycan və dünya bəstəkarlarının əsərlərini ustalıqla ifa etdim və əfsanəyə dönmüş məhəbbət tarixindən musiqinin dili ilə söhbət açdım. Həmin gecə ifamda F.Şopenin "Vals"ını da tamaşaçılar xüsusi maraqla dinlədilər. F.Listin "Loreleya" əsəri isə ürəkləri riqqətə gətirdi.

### Vokal ifa etmək bacarığımı da nümayiş etdirdim

Qeyd edim ki, Azərbaycan Milli Konservatoriyasının nəzdində İncəsənət Gimnaziyasının şagirdiyəm. Xalq artisti Fidan Hacıyevanın Vokal Musiqi Məktəbində də vokal dərsləri alıram. Tədbirdə daha bir istedadımı - vokal ifa etmək bacarığımı da nümayiş etdirdim. "Sevgi valsı"nı (musiqisi Tofiq Quliyev) səsləndirdim. Xalq artisti Fidan Hacıyeva ilə birgə "Gözəlim, yar gözəlim" ("Arşın mal alan") operası və "Axşam mahnısı"nı (musiqisi Tofiq Quliyev) ifa etdim və bu mahnılar tamaşaçıların ürəyini ovsunladı. Mərasimdə Vokal Musiqi Məktəbinin yetirmələri olan Orxan Cabbarovun, Rəna Cəfərzadənin, Tural Tağıyevin, Aqşin Xudaverdiyevin ifasında Azərbaycan və dünya bəstəkarlarının əsərləri də səsləndirildi. Tədbirdə qonaq qismində iştirak edən şotlandiyalı Bob Petrin ifası isə tamaşaçıları lirik notlara köklədi. Əməkdar incəsənət xadimi İlham Nəcəfovun saksofonda ifa etdiyi caz-muğam sintezi nümunələri musiqili gecəni bir daha rövnəqləndirdi.

### Ayla, sənin gözəl səsin var

Alqışlar yağışına bürünmüşdüm. Xalq artisti Fidan Hacıyeva rəhbərlik etdiyi Vokal Musiqi Məktəbinin tərifnaməsini mənə təqdim etdi və dedi ki, Ayla, sənin gözəl səsin var. Qeyd edim ki,Vokal Musiqi Məktəbinin martın 18-də Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında təqdim etdiyi "Baharın səsi" adlı konsert proqramında Xalq artisti Fidan Hacıyevanı ifalarından birini fortepianoda mən müşayiət edirdim.

Tədbirdə iştirak edən anam Sevda xanım da fürsətdən istifadə edərək mənim uğurlarıma çox sevindiyini və övladının musiqi istedadının üzə çıxarılmasında əməyi olan hər kəsə minnətdarlığını bildirdi.

Gecəyə toplaşan sənətsevərlərin, Fidan Hacıyeva kimi xeyirxah insanların hər biri, mahnıda deyildiyi kimi, gözəl və qəşəng idilər. Vokal Musiqi Məktəbinin müəllimi Arzu Qurbanovanın Tural Tağıyevlə birgə "Yaşın nə fərqi var" dueti sevginin ülvi duyğu olduğunu tədbir iştirakçılarına bir daha yaşatdı.

Qeyd edim ki, professor Tamara Poddubnaya məni Nyu-Yorkda "Long Island Conservatory of Music"ə dəvət edib. Bu konservatoriyaya xüsusi istedadı olan uşaqlar qəbul olunurlar. Artıq mən də həmin konservatoriyaya imtahansız qəbul olunmaq və ödənişsiz təhsil almaq təklifi almışam. Almaniyada, Bolqarıstanda, İtaliyada, həm də Türkiyədə keçirilən beynəlxalq müsabiqələrdə ustad dərsləri almağı da unutmuram.

...Sən demə, həyəcanlanmaq həmişə adamı uğursuzluğa düçar etmirmiş. Bu dəfə o, məni çaşqınlığa düçar etmədi, əksinə, məsuliyyətimi birə-beş artırdı və nəticədə sonsuz alqışlarla səhnəni tərk etdim.

...Ayla Kəlbiyevanın 13 yaşı var. Yaşının az olmasına baxmayaraq, nailiyyətləri çoxdur. 2013-cü ildə Maltada "Violin and friends" beynəlxalq müsabiqəsində, 2014-cü ildə Fransada N.Rubinşteyn adına XII beynəlxalq fortepiano müsabiqəsində, 2015-ci ildə İtaliyada "Citta di Pesaro" XII beynəlxalq musiqi müsabiqələrində ikinci yerə layiq görülüb. ABŞ-ın Nyu-York şəhərində "American Protege" Beynəlxalq Fortepiano Müsabiqəsinin qalibi olub, nüfuzlu "Carnegie Hall"da çıxış edib. 2017-ci ildə "Stars at Tenerife" beynəlxalq musiqi müsabiqəsində ikinci yeri tutub. Almaniyanın Baden-Vürtemberq şəhərində pianoçuların "Musical Fireworks" beynəlxalq müsabiqəsində birinci yerə layiq görülüb. Bu günlərdə isə Türkiyədə keçirilən Beynəlxalq fortepiano müsabiqəsində birinci yeri tutub.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4530, **Sifariş** 2178

**Məsul növbətçi:** Y.Əliyev


# UFAZ-ın 40 tələbəsi Strasburq Universitetində olub

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan-Fransız Universitetinin (UFAZ) 40 tələbəsi 2 həftə ərzində Strasburqda yay məktəbində iştirak edib. İyunun 30-dan başlanan yay məktəbində tələbələr intensiv fransız dili dərsləri keçib, Strasburq Universitetinin bir neçə elmi laboratoriyasında olublar. Fransaya səfər zamanı mədəni proqram çərçivəsində tələbələr Avropa Şurası və Avropa Parlamentində olaraq bu qurumların fəaliyyəti ilə tanış olublar.

Strasburqa həmçinin UFAZ-ın direktoru, dosent Vazeh Əsgərov və bir neçə müəllimi də səfər edib. Yay məktəbinin ikinci həftəsində UFAZ tələbələri Strasburq Universitetinin prezidenti Michel Deneken və digər nümayəndələri ilə görüşüblər. UFAZ-ın direktoru, dosent Vazeh Əsgərov tələbələrə göstərilən diqqətə, eləcə də yay məktəbinə və bütövlükdə UFAZ layihəsinə verilən yüksək qiymətə görə Strasburq Universitetinin prezidenti Michel Denekenə təşəkkürünü bildirib. Michel Deneken UFAZ tələbələrinin Strasburq Universitetinin tələbəsi statusunu daşıdığını qeyd edərək onlarla səmimi söhbət edib. Builki yay məktəbinin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin qeyd olunduğu dövrə təsadüf etdiyini söyləyən Strasburq Universitetinin prezidenti ADR-in müstəqil dövlət olaraq de-fakto tanınmasının Fransanın paytaxtı Parisdə baş verməsini məmnunluqla ifadə edib və bunun böyük önəm daşıdığını tələbələrin diqqətinə çatdırıb.

Strasburqa səfər çərçivəsində UFAZ-ın direktoru, dosent Vazeh Əsgərov Strasburq Universitetinin prezidenti Michel Deneken, universitetin beynəlxalq əlaqələr üzrə prorektoru İrinie Jacoberger, vitse-prezident Philippe Turek, kimya fakültəsinin direktoru Jean-Marc Planeix, eləcə də UFAZ-ın Unistra üzrə koordinatoru Eckhart Hotzel və elm üzrə eksperti Pierre Collet ilə görüşlər keçirib, UFAZ-ın gələcək perspektivləri və digər məsələlərlə bağlı müzakirələr aparıb.

# Etibarsız sayılır

**Bakı İslam Universiteti** tərəfindən 2005-ci ildə Cumayev Əyyub Məmməd oğluna verilmiş N-0887 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 1 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş İbadov Rafiq Rahib oğluna verilmiş A-464083 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**M.Gəncəvi adına Kirovabad Pedaqoji məktəbi** tərəfindən 1984-cü ildə Kərimova Təranə Məmmədbağır qızına verilmiş ДТ-I-767719 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Cilov adası 131 nömrəli tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Cəfərova Sevinc Vahid qızına verilmiş 10 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Cilov adası 131 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Həsənova (Kərimova) Arzu Sakit qızına verilmiş 01 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Maşxan kənd tam orta məktəbi 2003-cü ildə bitirmiş Əfsəlov Elvin Allahyar oğluna verilmiş A-631292 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 7 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Qafarov Salman Elçin oğluna verilmiş A-521003 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Baş Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması İnstitutu** tərəfindən 1999-cu ildə Qədirli Şəhla Cavanşir qızına verilmiş N-002965 nömrəli Yenidənhazırlanma Haqqında diplom itdiyi üçün etibarsız sayılır.

**Göygöl rayon** Yeni Qızılca kənd tam orta məktəbinin IX sinfini 1993-cü ildə bitirmiş Comərdəliyev İlqar Çingiz oğluna verilmiş 143485 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** qiyabi-axşam məktəbinin Qarağan Şıxlar kənd məktəbində yerləşən filialını (axşam sinfini) 1986-cı ildə bitirmiş İsmayılov Qüdrət Nüsrət oğluna verilmiş 201322 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 2 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Rəhimov Zahid Hacı oğluna verilmiş A-207458 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar şəhər** 3 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Sultanov Etibar Bəxtiyar oğluna verilmiş A-257736 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Əcəxur kənd tam orta məktəbini 2011-ci ildə bitirmiş Atakişiyeva Faina Cigərxan qızına verilmiş A-078889 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayonu** Həsənqala kənd tam orta məktəbini 2008-ci ildə bitirmiş Güzel Elvina Sultan qızına verilmiş B-567359 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Texnikumu** tərəfindən 1992-ci ildə Voronkova Qalina Yevgenevnaya verilmiş PT-I-130015 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 149 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Vahidov Ağamurad Əlmurad oğluna verilmiş E-010796 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ali Diplomatiya Kolleci** tərəfindən 2000-ci ildə Babayev Müzəffər Akif oğluna verilmiş A-065362 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Ağdaş Dövlət Humanitar Kolleci** tərəfindən 2009-cu ildə Əzizli Nigar Tahir qızına verilmiş BB-II-095190 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2013-cü ildə Rəsulova Lalə Vahid qızına verilmiş A-010472 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Xocavənd rayon** 4 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Məmmədli Nurlan Kamal oğluna verilmiş AN-486668 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 27 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Həsənova Röya Təbriz qızına verilmiş A-697689 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Milli Konservatoriyası** tərkibində Musiqi Kolleci tərəfindən 2009-cu ildə Əhmədova (Həsənova) Lalə Fərman qızına verilmiş BB-II-088187 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Şağlaser kənd tam orta məktəbini 2015-ci ildə bitirmiş Əlizadə Mərhəmət Tahir oğluna verilmiş A-469808 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Abışabad kənd tam orta məktəbini 1995-ci ildə bitirmiş Quliyeva Sürəyya Təvəkkül qızına verilmiş 199 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Gülalan kənd tam orta məktəbini 2006-cı ildə bitirmiş Seyidov Araz Cahangir oğluna verilmiş B-350416 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Ləcət kənd tam orta məktəbini 1981-ci ildə bitirmiş Səfərov Məhəmməd Nürəddin oğluna verilmiş A-286030 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Vayxır kənd tam orta məktəbini 1987-ci ildə bitirmiş Həziyeva Nailə Həsən qızına verilmiş 319227 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Xanərəb kənd tam orta məktəbini 1992-ci ildə bitirmiş Quliyeva Həcər Zabil qızına verilmiş A-050251 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 121 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Məmmədova Müjgan Firuz qızına verilmiş B-373587 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 244 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Kərimli Qütanə İslam qızına verilmiş E-102806 nömrəli fərqlənmə attestatı itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Balıq Sənayesi Texnikumu** tərəfindən 2008-ci ildə Aslanov Bəhruz Nəriman oğluna verilmiş BB-II-047922 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2005-ci ildə Həsənova Nuranə Rahil qızına verilmiş B-041182 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2000-ci ildə Cəfərova Xuraman Vidadi qızına verilmiş A-055684 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 169 nömrəli tam orta məktəbi 2002-ci ildə bitirmiş Çmelev Andrey Sergeyeviçə verilmiş 588377 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 18 nömrəl tam orta məktəbi 2000-ci ildə bitirmiş Həsənov Anar Elbəyi oğluna verilmiş A-423024 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov və şöbənin kollektivi Azərbaycan Dillər Universitetinin baş mühasibi Elşən Məmmədova atası

**ALLAHVERDİ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Təhsil Nazirliyinin Tədris resursları şöbəsinin müdir müavini Əsgər Quliyev ailəsi ilə birlikdə Sahibə və Sədulla İsayevlərə anaları

**GÜLARƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Turizm Peşə Məktəbinin kollektivi məktəbin direktoru Neylüfər Kərimovaya və ailə üzvlərinə atası

**HACI ƏBÜLFƏZİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Təhsildə İnkişaf və İnnovasiyalar üzrə 2-ci qrant müsabiqəsinin qalib layihələri

## Çağırışaqədərki hazırlıq rəhbərlərinə mentor xidməti



Təhsil Nazirliyinin keçirdiyi “Təhsildə İnkişaf və İnnovasiyalar üzrə 2-ci qrant müsabiqəsi”nin nəticələrinə əsasən fərdi kateqoriya üzrə qalib layihələrdən biri “Çağırışaqədərki hazırlıq müəlliminə mentor dəstəyi” layihəsidir. Layihənin rəhbəri Sumqayıt şəhər İnternat tipli Gimnaziyanın gənclərin çağırışaqədərki hazırlığı rəhbəri, ehtiyatda olan baş leytenant Vasif Ramazanovdur. Layihənin məqsədi Sumqayıt şəhərinin GÇH rəhbərlərinə müasir təhsilin və cəmiyyətin tələbləri ilə uyğunlaşması üçün geniş spektrli pedaqoji mentor dəstəyinin təmin edilməsidir. Layihənin vəzifələri olaraq aşağıdakılar müəyyən edilib:

-GÇH fənni üzrə metodik vəsait hazırlamaq;
-GÇH mentor saytı dəstəyini təmin etmək;
-Qabaqcıl təlim-tədris təcrübələrini bölüşmək və yaymaq;
-Yeni təhsil proqramı, peşəkar ixtisasartırma və İKT təlimləri;
-GÇH rəhbərlərinin təlim-tədris prosesini müasir tələblərə uyğun qurması ilə təhsilalanların fənnə marağının yüksəldilməsi;
-GÇH rəhbərlərinin ictimai nüfuzunun artmasına nail olmaq.

Layihə iyunun 20-dən sentyabrın 20-dək Sumqayıt şəhərində icra olunacaq. Layihənin icra planına uyğun olaraq, GÇH rəhbərləri üçün layihədə nəzərdə tutulan yeni təhsil proqramı, peşəkar ixtisasartırma və İKT üzrə təlimlər 20 iyun-3 iyul 2018-ci il tarixdə uğurla həyata keçirilib.

Hazırda metodiki vəsaitin və mentor dəstəyi saytının hazırlanması üzərində iş gedir. İyulun 10-dan etibarən respublika üzrə GÇH rəhbərləri üçün onlayn müsabiqə elan olunub. Müsabiqənin şərtləri və layihənin gedişi barədə məlumatlar layihənin saytında *(www.gchmentor.com)* və facebook sosial səhifəsində *(www.facebook.com/groups/509140832561252/)* yer alacaq.

Layihənin yekun tədbiri respublikanın qabaqcıl GÇH rəhbərlərinin iştirakı ilə sentyabrın 4-də Sumqayıt şəhərində keçiriləcək.

# “Gənc olimpiadaçılara çağırış” layihəsi təqdim olunub

Şakir CƏFƏROV

Astarada “Təhsildə inkişaf və innovasiyalar üzrə II qrant müsabiqəsi”nin qalibi Emil Axundovun “Gənc olimpiadaçılara çağırış” layihəsinin təqdimatı olub.

Rayon təhsil şöbəsindən redaksiyamıza daxil olan məlumata görə, tədbirdə Astara və Lənkəran rayonlarının ümumtəhsil məktəblərinin müəllimləri, təhsil işçiləri iştirak ediblər. Rayon təhsil şöbəsi metodkabinetinin direktoru Emin Fətəliyev layihənin əhəmiyyətini yüksək dəyərləndirərək onun müəllifinə uğurlar arzulayıb.

Layihə üzrə ekspert Əlihəsən Baxşıyev Lənkəran-Astara bölgəsində layihənin icrası ilə bağlı görüləcək işlərdən danışıb.

Sonra “Gənc olimpiadaçılara çağırış” layihəsinin rəhbəri Emil Axundov layihənin elektron təqdimatını edib və tədbir iştirakçılarının suallarını cavablandırıb.

# Xəyalları gerçəkləşdirən layihə

**Bahar ABDULLAYEVA,**
*İsmayıllı şəhər İ.Həsənov adına 1 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi*

## Tvinninqlə böyük dünya kiçik sinifdə




2013-cü ildən bəri Azərbaycan məktəblərinin, pedaqoji işçilərinin qoşulduğu “e-Twinning plus” layihəsi Azərbaycan Respublikası Təhsil Nazirliyinin biz müəllimlərə bir töhfəsidir. Həmin layihəyə ilk qoşulan məktəblərdən biri olaraq artıq 5 ildir ki, Tvinninqlə böyük dunya kiçik sinfimizə yerləşib. Tvinninq sayəsində dünyanın müxtəlif ölkələrindən olan layihə ortaqlarımızla təcrübə və fikir mübadiləsi aparır, onların adət-ənənələri, həyat tərzləri, mədəniyyətləri ilə tanış olmaq fürsəti qazanırıq.

Əsas məqsədi pedaqoji işçilər arasında ünsiyyəti artırmaq, əməkdaşlıq imkanları yaratmaq, digər ölkələrdən olan həmkarlar ilə birgə təhsilin inkişafı yönümündə müxtəlif layihələr icra etmək üçün şərait yaratmaq olan Tvinninq bir müəllim kimi illərdir mənim də müəllimlik peşəmə böyük maraq qatmış, ideyalarımın həyata keçməsində, arzularımın reallaşmasında gözəl bir vasitəyə çevrilmişdir.

Tvinninqlə pedaqoji bacarıqlarımızın artırılması istiqamətində müxtəlif beynəlxalq səviyyəli təlim və kurslarda iştirak edir, mükafat və sertifikatlarla təmin olunuruq. Belə ki, arzuladığımız layihələri həyata keçirməkdə heç bir maneəmiz olmur. Ya hansısa bir layihəyə qoşulur, ya da yeni layihə yaradıcısı olaraq fəaliyyət göstəririk. Layihələrimiz tamamlandıqdan sonra Milli keyfiyyət nişanı almaq üçün təqdim edilir. Bəzən Milli keyfiyyət nişanı alan layihəmiz həm də Avropa keyfiyyət nişanı qazanır. Bir Azərbaycan müəllimi və onun şagirdləri üçün bundan böyük sevinc ola bilməz. Bu sevinci layihə işləri zamanı fəaliyyət planına uyğun olaraq bizə kömək olan valideynlərlə bölüşür, onlara övladlarının milli və beynəlxalq sertifikatlarını təqdim edirik.

Bu günə qədər işlədiyim “Evimizde ne kadar güvendeyiz”, “E-Twinpaper”, “Lets play, dance and eat traditionally”, “Home sweet home” layihələri Milli keyfiyyət nişanı ,“Home sweet home” layihəsi isə Avropa keyfiyyət nişanına layiq görülüb.

Təkcə 2017-2018-ci tədris ili ərzində qurucusu olduğum “E-twinnerlar yollarda”, “Bizim nağıl dünyamız”, “Oynayaraq öyrənirik” layihələri ilə yanaşı qoşulduğumuz müxtəlif layihələrdə də uğurla iştirak etmişik. Hətta qoşulduğumuz “Save the planet” adlı 208 ortağın çalışdığı Avropa layihəsi Elektron Təhsil müsabiqəsində bəyənilərək “Beynəlxalq və regionlararası ən yaradıcı təhsil layihəsi” nominasiyası üzrə 1-ci yerə layiq görülüb.

Öz hərəkətliliyi ilə fərqlənən, qurucusu olduğum “E-twinnerlar yollarda” layihəsi çərçivəsində isə iki ölkə - Azərbaycan və Türkiyənin maddi və mədəni irsinin yaxından öyrənilməsi, ortaq gəzintilərin təşkili nəzərdə tutulub. Demək olar ki, artıq layihənin son mərhələsindəyik. Dərs ili ərzində virtual görüşlərdən əlavə məktəbimizin iki nəfər müəllimi ilə aprel ayında 5 günlük Türkiyədə olduq. İlk olaraq layihə ortağı olduğumuz məktəblərlə tanış olduq, “Maddi və mədəni irsin tanıdılması” mövzusunda simpoziumda iştirak etdik. Sonra isə proqram çərçivəsində İstanbulda, Hatayda və İskəndərunda olan tarixi yerlərə getdik, geniş məlumatlar əldə etdik.

Bu cür layihələrdə uğurla iştirakımız Təhsil Nazirliyi tərəfindən yüksək qiymətləndirilir. Xarici ölkələrdə keçirilən seminarlar üçün iştirakımıza şərait yaradılır. Elə 2-5 may tarixində Türkiyədə keçirilən kontakt seminarda iştirak etmək üçün seçilməyimiz də belə töhfələrdən biri idi. Dunyanın 10-dan çox ölkəsinin iştirak etdiyi Beynəlxalq kontakt seminarda Azərbaycan təmsilçisi kimi iştirakım qürurverici idi.

Əməyimizin belə qarşılığını görəndə yeni-yeni layihələrdə çalışmaq üçün daha da həvəslənir, digər həmkarlarımı da Tvinninqə qoşulmağa, ideyalarını reallaşdırmağa dəvət edirəm. Tvinninq xəyalları gerçəkləşdirməsidir, əziz müəllimlər. Gəlin, Tvinninqlə özümüzü də, şagirdlərimizi də dəyişək. Azərbaycanda olan Avropa mükafatlı Tvinninq məktəblərinin sayını artıraq.

# Azərbaycan üçün öyrədənlər və öyrənənlər

⇦ Əvvəli səh.1

Samirə KƏRİMOVA

## “Təhsil avtobusu-2018” yay məktəbi ölkənin 5 bölgəsini əhatə edir



Təhsil Nazirliyinin şagirdlərin keyfiyyətli təhsil alması ilə yanaşı, onların məktəbdənkənar fəaliyyətinə də ciddi diqqət yetirdiyini söyləyən Firudin Qurbanov son illər bu istiqamətdə görülən işlərdən danışıb: “Məktəbdənkənar fəaliyyət uşaq, yeniyetmə və gənclərin maraq, meyil və bacarıqlarının, intellektual səviyyələrinin, yaradıcılıq qabiliyyətlərinin inkişafı, fiziki cəhətdən sağlam böyümələri üçün əlverişlidir. Onların dünyagörüşünün genişləndirilməsi, dövlətçiliyə sədaqət, vətənpərvər, milli-mənəvi dəyərlərimizə dərin hörmət və ehtiram ruhunda tərbiyə olunmaları, məktəblilərin mənəvi, fiziki, estetik tərbiyəsinin, bədii yaradıcılıq qabiliyyətlərinin istiqamətləndirilməsi və inkişaf etdirilməsi ilə əlaqədar məqsədyönlü işlər görülür, bununla bağlı bir çox tədbir həyata keçirilir, layihələr reallaşdırılır. “Azərbaycan üçün öyrət” təhsil proqramı çərçivəsində start verilən yay məktəbi də məhz son illərin təhsilə yönəlik, yeniyetmə və gənclərin hərtərəfli inkişafına xidmət edən ən uğurlu layihələrimizdən biridir”.

Proqramın əsas məqsədinə toxunan nazir müavini bildirib ki, təhsilin keyfiyyətinin yüksəldilməsində ictimaiyyətin iştirakına imkan yaradılması, əlavə təhsil imkanları ilə şagirdlərin bilik və dünyagörüşünün artırılması bu layihənin əsas məramıdır. F.Qurbanov layihənin ümumi təhsil müəssisələrinin göstəriciləri zəif və orta olan 7-8-9-cu sinif şagirdlərinin şəxsi inkişafına, eləcə də dünyagörüşünün formalaşmasına təsir edəcəyini, onların dərslərə olan maraqlarının artmasına şərait yaradacağını vurğulayıb. O da diqqətə çatdırılıb ki, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”na uyğun həyata keçirilən bu layihə keyfiyyətli təhsil üçün bərabər imkanların yaradılmasına xidmət edən təhsil proqramıdır. Qeyd olunub ki, iyulun 23-dək davam edəcək yay məktəbi çərçivəsində ölkənin 5 bölgəsində yaşayan şagirdlərin şəxsi-inkişaf təlimlərində, intellektual yarışlarda iştirakı təmin olunacaq.

Tədbirdə iştirak edən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli son illər Təhsil Nazirliyinin həyata keçirdiyi işlərdən razılıq hissi ilə danışaraq, bu tip layihələrin gələcəkdə daha da genişləndirilməsini tövsiyə edib.

### Müxtəlif şəhər və rayonları əhatə edən təhsil marafonu

“Təhsil avtobusu” yay məktəbi “Azərbaycan üçün öyrət” proqramı çərçivəsində ölkəmizin müxtəlif şəhər və rayonlarını əhatə edən təhsil marafonudur. Proqramın məqsədi korporativ sosial məsuliyyət çərçivəsində təhsilin keyfiyyətinin yüksəldilməsində ictimaiyyətin iştirakına imkan yaradılması, əlavə təhsil imkanları ilə təhsilalanların tədris imkanlarının, bilik və dünyagörüşünün artırılmasıdır.

Proqram yeniyetmə və gənclərə dərsdən əlavə bilik və bacarıqlar əldə etməyə, maraqlı mövzuların interaktiv tədrisi ilə onların dünyagörüşlərini genişləndirmək, öyrənməyə olan maraq və həvəsini artırmaq, bilik və bacarıqlar verməklə karyera inkişaflarına təsir etmək imkanları yaradır. Yay məktəbi zamanı təlimçi və ekspertlərdən ibarət peşəkar komanda “Təhsil avtobusu”nda Azərbaycanın müxtəlif bölgələrinə səyahət edir.

2016-2017-ci illərdə “Təhsil avtobusu” yay məktəbi çərçivəsində 16 gün ərzində 4000 km yol qət edilib. Bakı, Lənkəran, Quba, Gəncə, Şəki, Masallı, Cəlilabad, Sabirabad, Mingəçevir, İsmayıllı və Zaqatalanın 12 şəhər və 13 kənd-qəsəbə məktəbinin, 22 ali və orta ixtisas təhsili müəssisəsinin 400-dən çox şagird və tələbəsi təlimlərə cəlb edilib, təlimçi və ekspertlər tərəfindən 150 akademik saatdan çox həcmdə təhsil proqramları və komanda-öyrədici oyunları keçirilib.

### İlk ünvan Quba, son dayanacaq isə Qəbələ

İyulun 17-də start götürən “Təhsil avtobusu-2018”-in ilk ünvanı Quba rayonu olub. Bununla bağlı keçirilən açılış mərasimində layihənin təşkilatçı şirkətlərindən “Engin LTD” MMC-nin, “Kapital Bank”ın Quba filialının, “Ekspo 2025 Bakı” layihəsinin və Quba Rayon Təhsil Şöbəsinin əməkdaşları iştirak ediblər. Tədbirdə yay məktəbinin təşkili təqdir olunub, onun ümumi təhsil müəssisələri şagirdlərinin inkişafına, dünyagörüşünün artmasına müsbət təsir edəcəyi vurğulanıb.

Rayonun Kürkün, İsnov, Püstəqasım, Ərməki, Çartəpə, Qaraçay, Xucbala, Rustov, Amsar kənd və 2 nömrəli şəhər məktəblərinin şagirdləri 1 gün olmaqla təlimçi və ekspertlər tərəfindən keçirilən fərdi inkişaf təlimlərində və intellektual yarışlarda iştirak ediblər. Yeniyetmələrlə “Mənim uğurlu karyeram”, “Kommunikasiya”, “Robotlarla iş”, “Sığorta” mövzularında təlimlər, həmçinin “Nə? Harada? Nə zaman?” və digər səpgidə müxtəlif intellektual oyunlar keçirilib.

Sonda iştirakçılara sertifikatlar və hədiyyələr təqdim edilib.

İyulun 19-da “Təhsil avtobusu - 2018” Masallı məktəblilərinin qonağı olub.

Burada da sözügedən təlimlər keçirilib. Rayon mərkəzindən və ucqar kəndlərdən tədbirə qatılan şagirdlər maraqlı və xoş bir gün yaşayıblar.

Qeyd edək ki, iyulun 21-i Şəmkirdə, 22-si Şəkidə olacaq “Təhsil avtobusu - 2018”-in son dayanacağı Qəbələdir. Bu bölgələrdə yaşayan şagirdlər üçün də proqrama müvafiq olaraq təlimlər, onların hərtərəfli inkişafına xidmət edən söhbətlər aparılacaq, intellektual-əyləncəli oyunlar keçiriləcək. Həmin bölgələrin ən ucqar kəndlərində fəaliyyət göstərən modul məktəblərin şagirdlərinin də bu təlimlərə cəlb olunması, onların bilik və bacarıq səviyyələrinin yüksəldilməsi, vaxtlarının səmərəli keçirilməsi builki yay məktəbinin qarşıya qoyduğu əsas hədəflərdəndir.

5 gün müddətində davam edən yay məktəbində bütövlükdə 140-a yaxın şagirdin iştirakı nəzərdə tutulub.

### Bu xeyirxah missiyaya dəstək verənlər

2016-cı ildən Təhsil Nazirliyinin təşkilatçılığı ilə reallaşdırılan bu xeyirxah missiyanın həyata keçirilməsinə elə ilk günlərdən dəstək verənlər oldu və sonradan buna qoşulan qurumların sayı artmağa başladı.

Təhsil marafonunun start tədbirində onların da nümayəndələri iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İnsan resursları və təlim şöbəsinin müdir müavini Cahangir Hacıyev, “Kapital Bank”ın Marketinq Departamentinin direktoru Günel Fərzəliyeva, “Engin LTD” MMC-nin nümayəndəsi Nərmin Qəhrəmansoy təmsil etdikləri qurumların belə bir layihənin həyata keçirilməsinə dəstək olmalarından məmnunluq duyduqlarını, Təhsil Nazirliyi ilə əməkdaşlıqlarını bundan sonra da davam etdirəcəklərini bildiriblər.

Partnyorlar belə bir layihənin arxasında xoş bir niyyətin dayandığını görərək, ona böyük məmnuniyyətlə qoşulublar.

Məlumat üçün bildirək ki, builki yay məktəbi Təhsil Nazirliyinin təşkilatçılığı, “Engin LTD” MMC, “Kapital Bank”, “Ekspo 2025 Bakı” layihəsinin əsas dəstəyi, “Bakcell”, “GoldenPay”, “Microsoft Azərbaycan” və “PAŞA Sığorta” şirkətlərinin dəstəyi, “1news.az”, “Azərbaycan İntellektual Klublar Assosiasiyası”, “ARB TV”, “ASAN xidmət”, “Bir” Tələbə-Könüllü proqramı, “Code Tusi”, “Edumap” Təhsil portal, “Edutainment.az”, “Engineering For Kids”, SABAH qrupları, “Şərq-Qərb” ASC, “Təhsil TV” və “Youth Inc.” Sahibkarlıq Proqramının tərəfdaşlığı ilə keçirilir.

Layihənin rəsmi informasiya dəstəkçiləri isə “1news.az”, “ARB TV” və “Təhsil TV”-dir.